**Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!**


DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

14-16 DEKABR 2019-cu il

№ 223 (4121)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur


# ERMƏNİ LOBBİŞİ SAXTA GENOSİDİN TANIDILMAŞI İLƏ ABŞ PARLAMENTARİZM TARİXİNƏ ƏN AĞIR ZƏRBƏNİ VURDU

səh. 8

**Azərbaycanın pressinq siyasəti Paşinyanın da axırını sürətləndirir...**

səh. 9

**AŞ-dən qəribə hesabat - köçkünlərə ev verilməsini, erməni təcavüzünü bir kənara qoyub, hələlik evi olmayan köçkünlərə görə Azərbaycanı tənqid edir...**

səh. 3

**Rusiyadan sabiq senator Fərhad Əhmədovun ideoloji diversiyasına YAP-dan reaksiya yetərli oldumu...**

səh. 3

**Növbədənkənar parlament seçkilərinə gedən müxalif partiyaları daha da zəif salan səbəb - dairələr üzrə vahid namizəd problemini həll edə bilmədilər...**

səh. 8

**Azərbaycan Dünya Bankının kreditindən imtina etdi - dövlətin gücü nümayişdə...**

səh. 11

**Azərbaycanda nağdsız əməliyyatlar zərurətə çevrilir, amma problemlər də çoxdur**

səh. 10

**Magistraturaya qəbulun ikinci turunun ləğvi söhbətləri ciddi ictimai narazılıqlar törədib...**

səh. 14




səh. 6

## Azərbaycan bəzi beynəlxalq kreditlərdən imtina etmək gücünə çatdı



**2025-ci ilədək Azərbaycanı idarə edən «common brain» siyasi elita...**

səh. 4

**Seçki ərəfəsi Azərbaycana Ermənistandan əlavə ənənəvi təxribat - «talış kartı»...**

səh. 5



**Türkiyədə real siyasi alternativ - Davudoğlu çox iddialı ambisiyalarla Ərdoğana əks düşərgədə fəallaşdı...**

səh. 7

**Belə seçki platformalarının real gücü ola bilərmi...**

səh. 5



**Milli Məclisin gənc deputatlar korpusu ictimai gözləntilərə uyğun fəaliyyət göstərə bildimi...**

səh. 4



**Tikinti şirkətlərinə böyük vergi jesti - "novostroyka" qiymətlərini nə gözləyir...**

səh. 11



**Gürcüstan Təhsil Nazirliyi soydaşlarımızın dərslik məsələsini hələ həll edə bilmir - Azərbaycan Təhsil Nazirliyi yenidən fəaliyyətdə...**

səh. 13



**Bakıətrafı marşrut avtobuslarını gecələr yatmayan sürücülər idarə edir - sərnişinlər üçün böyük təhlükə mənbəyi...**

səh. 15



## Prezident İlham Əliyev ”20 Yanvar faciəsinin 30-cu ildönümü haqqında” sərəncam imzaladı

**Prezident İlham Əliyev "20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında" sərəncam imzalayıb.**

Sərəncamda Azərbaycan ərazisində və ölkə hüdudlarından kənarda 20 Yanvar faciəsinin otuzuncu ildönümünə həsr olunmuş anma mərasimlərinin keçirilməsi istənilir, eyni zamanda Prezident Administrasiyasına faciənin ildönümü ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirilməsini təmin etmək tapşırılır.

## Ermənistanın qeyri-konstruktiv yanaşması QDİƏT-də etiraz doğurdu

**Afinada keçirilən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) Xarici İşlər Nazirləri Şurasının 41-ci iclasında Azərbaycandan Xarici işlər nazirinin müavini Mahmud Məmməd-Quliyevin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib.**



Nazirlikdən baki-xeber.com-a verilən məlumata görə, iclasda təşkilat çərçivəsində sahəvi əməkdaşlıq məsələləri, işçi qruplarının fəaliyyəti, səmərəliliyin artırılması üsulları, təşkilati məsələlər, QDİƏT-in digər ölkə və təşkilatlarla əməkdaşlığı və digər məsələlər müzakirə edilib.

Uzun müddətdir təşkilat çərçivəsində baxılmaqda olan və iqtisadi əməkdaşlığı ehtiva edən sənəd layihələri də iclasda müzakirə edilib, lakin Ermənistan tərəfinin qeyri-konstruktiv yanaşması və beynəlxalq hüququn normalarını inkar etməsi səbəbindən bu dəfə də qəbul edilə bilməyib, beləliklə üzv ölkələrin narazılığına səbəb olub.

Azərbaycan nümayəndə heyətinin rəhbəri çıxışında ölkəmizin təşkilatda səmərəli və layihə yönlü fəaliyyətdə maraqlı olduğunu, konkret nəticələrə hədəflənmiş fəaliyyətin vacibliyini qeyd edib. O, Azərbaycanın regionda bağlantılar sahəsində bir sıra layihələr həyata keçirdiyini, bu sahədə böyük imkanların olduğunu və QDİƏT regionunun Azərbaycanın potensialından yararlana biləcəyini də səsləndirib.

Nazir müavini regionda əməkdaşlığın inkişafı üçün həlli uzadılmış münaqişələrin böyük maneə olduğunu, QDİƏT çərçivəsində əməkdaşlığa mənfi təsir göstərdiyini, Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistanın özünü regional layihələrdən təcrid etdiyini diqqətə çatdırıb.

Qeyd etmək lazımdır ki, Azərbaycan 2018-ci ildə təşkilatda sədrliyi həyata keçirib və fəaliyyətini bağlantılar sahəsində layihələr üzərində qurub.

## ABŞ səfiri Azərbaycanda seçkilərə beynəlxalq müşahidəçilərin çağırılması qərarını dəstəklədi

*”Vaşinqton Bakı ilə təhlükəsizlik məsələlərinə dair məsləhətləşmələri davam etdirəcək”*

**Növbədənkənar parlament seçkilərini izləmək üçün ATƏT-in Demokratik Təşkilatlar və İnsan Hüquqları Bürosu və ATƏT Parlament Assambleyasının nümayəndələrinin çağırılması barədə hökumətin qərarını dəstəkləyirəm.**



"Trend"-in məlumatına görə, bunu ABŞ-ın Azərbaycandakı səfiri Li Litsenberger deyib.

Səfir bildirib ki, azad və demokratik seçkilər Azərbaycanın irəli hərəkət etməsinə imkan verəcək.

Səfir, həmçinin ümidvar olduğunu bildirib ki, yeni parlamentdə qadınların, xüsusilə də qadın sahibkarların sayı çox olacaq.

"Interfax"a görə, səfir deyib ki, ABŞ Azərbaycanla təhlükəsizlik məsələləri ilə bağlı əməkdaşlığı davam etdirir. "Biz Azərbaycanla təhlükəsizlik sahəsində əməkdaşlığı davam etdirəcəyik. ABŞ Azərbaycanın suverenliyinə və müstəqilliyinə hörmət edir və bunun çərçivəsində təhlükəsizlik məsələləri ilə bağlı hər cür dəstək göstərməyə çalışırıq", - deyə o, jurnalistlərə bildirib.

Səfirin sözlərinə görə, Vaşinqton Bakı ilə müxtəlif istiqamətlərdə əməkdaşlığın genişləndirilməsinə sadiqdir.

# Prezident İlham Əliyev Rusiyanın Həştərxan vilayətinin qubernatorunu qəbul edib



**Prezident İlham Əliyev dekabrın 13-də Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru İqor Babuşkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Qonaqları salamlayan Prezident İlham Əliyev deyib ki, Həştərxanla Bakını uzun qarşılıqlı fəaliyyət, tərəfdaşlıq və əməkdaşlıq tarixi bağlayır:"Biz Xəzərin sahilində yerləşirik, ona görə də münasibətlərimizin tarixi keçmiş əsrlərin dərinliklərinə gedir. Mən də Həştərxana səfərim zamanı bu şəhərlə tanış olmaq imkanı əldə etdim. O cümlədən mənə əməkdaşlığımızın tarixi barədə məlumat verildi. Bu əməkdaşlıq həqiqətən həmişə çox müsbət olub. Bu gün də biz çox fəal qarşılıqlı fəaliyyət göstəririk. Rusiya regionları arasında Həştərxan vilayəti ilə Azərbaycanın xüsusi münasibətləri var. Bu, bir daha bizim tariximizə və son vaxtlar çoxlu müştərək layihələrimizə əsaslanır".

Bütövlükdə bu ilin Rusiya-Azərbaycan münasibətləri üçün çox uğurlu olduğunu deyən dövlət başçısı gələn ilə böyük nikbinliklə baxdığını deyib.

Xoş sözlərə görə Azərbaycan Prezidentinə təşəkkür edən qubernator İqor Babuşkin deyib ki, həqiqətən, Azərbaycan Respublikası Həştərxan vilayəti üçün Xəzəryanı regionda əsas tərəfdaşlardan biridir. Uzun müddət ərzində əmtəə dövriyyəsi, turizm sahəsində bu cür sıx münasibətlər, işgüzar əlaqələr yarandığını deyən qonaq keçən il Həştərxanda açılmış Azərbaycan İşgüzar Mərkəzinin işindən danışıb, Həştərxanda və Bakıda bu cür mərkəzlərin həqiqətən ticari və mədəni əlaqələrin inkişafı üçün yaxşı vasitə olacağını vurğulayıb.

# ABŞ Senatının qeyri-obyektivliyi... Qondarma "soyqırıma" əl qaldıranlar yaxın tarixdə baş vermiş Xocalı soyqırımına niyə susurlar...

*Leyla Abdullayeva: ”ABŞ Senatının qətnaməsini qərəzli və hər hansı hüquqi əsası olmayan sənəd kimi qiymətləndiririk”*

**Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva ABŞ Senatının qondarma "erməni soyqırımı"nı tanıyan qətnaməni qəbul etməsinə münasibət bildirilməsinə dair KİV-in müraciətini cavablandırıb.**

Baki-xeber.com xəbər verir ki, XİN rəsmisi bildirib ki, bu ilin 12 dekabr tarixində ABŞ Senatı tərəfindən qondarma "erməni soyqırımı"nın tanınmasına dair qəbul edilən qətnamə tarixin saxtalaşdırılması və siyasi təzyiq vasitəsi kimi istifadə edilməsi cəhdidir:

"Qətnamənin mətnində elmi-tarixi baxımdan ziddiyyətli və şübhəli mənbələrə istinad olunması bu qətnamənin qeyri-peşəkar səviyyədə hazırlandığını və yalnız erməni lobbi dairələrinin çirkin məqsədlərinə xidmət etdiyini sübut edir.

Tarix tarixçilər tərəfindən tarixi obyektivlik prinsipləri əsasında araşdırılmalıdır. Bir əsr bundan əvvəl baş verdiyi iddia olunan hadisələrə ABŞ Senatı siyasi mülahizələrlə qiymət verməyə çalışdığı halda, Ermənistanın Azərbaycana qarşı davam edən hərbi təcavüzü, Azərbaycanın işğal olunmuş ərazilərində bir milyondan artıq azərbaycanlıya qarşı törədilmiş qanlı etnik təmizləmə, onların hələ də məcburi köçkün vəziyyətində yaşamasına və Xocalı soyqırımına münasibətdə sükut nümayiş etdirir və ikili standartlarla çıxış edir.



Bu qətnaməni qərəzli və hər hansı hüquqi əsası olmayan sənəd kimi qiymətləndiririk".

# ABŞ səfiri Senatın qondarma "soyqırımı" qətnaməsinə münasibət bildirərkən "Ağ Evin rəsmi mövqeyi deyil" dedi

**ABŞ Senatı tərəfindən "erməni soyqırımı" adlanan qətnamənin qəbulu Ağ Ev Administrasiyasının rəsmi siyasətini əks etdirmir.**

Baki-xeber.com xəbər verir ki, bunu ABŞ-ın Azərbaycandakı səfiri Li Litsenberqer deyib.

"Bu qətnamə qanunverici orqanın sənədidir. Senat bu məsələ ilə bağlı qərar qəbul edib və biz bunu nəzərə almalıyıq.

**Lakin bu sənəd Ağ Ev Administrasiyasının rəsmi siyasətinin göstəricisi deyil", - Litsenberqer bildirib.**

**Onun sözlərinə görə, ABŞ və Türkiyə müttəfiqdirlər. "Biz yaxın dost və tərəfdaşlarıq. Bu əməkdaşlığı davam etdirəcəyik", - səfir əlavə edib.**

# AŞ-dən qəribə hesabat - köçkünlərə ev verilməsini, erməni təcavüzünü bir kənara qoyub, hələlik evi olmayan köçkünlərə görə Azərbaycanı tənqid edir...

**Dekabrın 11-də Avropa Şurasının insan hüquqları üzrə komissarı Dunya Miyatoviç Azərbaycanda ifadə azadlığının vəziyyəti, hüquqşünasların hüquqlarının pozulması və məcburi köçkünlərin hüquqlarına dair hesabat dərc edib. Məruzə Avropa komissarının nümayəndə heyətinin iyulun 8-dən 12-dək Azərbaycanda keçirdiyi görüşlərin əsasında yazılıb.**

*"...ölkəmizi qınaması düzgün deyil"*

Komissar Dağlıq Qarabağ münaqişəsi nəticəsində didərgin düşmüş şəxslərin Azərbaycan hökuməti üçün prioritet mövzulardan biri olduğunu bildirib. Hesabatda o qeyd olunur ki, bəzi məcburi köçkünlər hələ də yataqxanalarda ağır şəraitdə yaşayırlar: "Yerləşdirildikləri mənzillər üzərində sahiblik hüququ əldə edə olunmayıb, mənzil təminatı zamanı məcburi köçkünlərin spesifik ehtiyacları nəzərə alınmayıb".

Komissar hakimiyyəti məcburi köçkünlərin bütün iqtisadi və sosial hüquqlara, özəlliklə də adekvat mənzil və işlə təminata çıxışını yaxşılaşdırmağa çağırır.

Ermənistanın Azərbaycana təcavüzü nəticəsində minlərlə insan köçkün həyatı yaşayır. Azərbaycanda ifadə azadlığının vəziyyəti, hüquqşünasların hüquqlarının pozulması və məcburi köçkünlərin hüquqlarına dair hesabat dərc edilən zaman minlərlə vətəndaşımızın nə səbəbdən köçkün həyatı yaşadığı deyil, hələlik evi olmayan qaçqınlara ev verilməməsi hesabatda yer alır.

Son illər ölkədə aparılan iqtisadi-sosial işlər bütün dünyanın diqqətindədir. Məcburi köçkünlərə dövlət tərəfindən yaradılan şərait xarici mətbuatda belə dəfələrlə işıqlandı. Danılmaz faktdır ki, məcburi köçkünlərin mənzillə təmin olunması istiqamətində görülən işlər davam etdirilir, onlar üçün müəyyən edilən müavinətin həcmi də artıb. Bu sahədə görülən işlərə baxmayaraq, məcburi köçkünlərin hüquqlarına dair xarici hesabat dərc edilən zaman hələlik mənzil almayan şəxslərə görə ölkəmizin tənqid edilməsi düzgün deyil.

Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bəzi beynəlxalq təşkilatlar Azərbaycana qərəzli mövqe nümayiş etdirirlər. Həmin təşkilatlar erməni təcavüzü nəticəsində 1 milyon insanın məcburi köçkün həyatı yaşamasını dünyaya yaymalıdırlar: "Onların nə səbəbdən köçkün həyatı yaşamasını, yaşayış haqlarının niyə pozulduğunu demək əvəzinə, ölkəmizə qarşı mənfi niyyət yürüdürlər. İnsan hüquqlarından danışan təşkilatlar bunu diqqətdə saxlamaq, Ermənistanın üzərinə yürümək əvəzinə, hələlik ev almayan məcburi köçkünlərə görə ölkəmizi qınaması düzgün deyil. Bu günə qədər beynəlxalq təşkilatlar bu kimi məsələlərə obyektiv yanaşmayıblar. Son açıqlama ilə bağlı konkret şəkildə bildirilməlidir ki, bəzi məcburi köçkünlərin hələ mənzillə təmin olunmaması fikri düzgün deyil. Nəzərə almaq lazımdır ki, Azərbaycan 1 milyondan artıq məcburi köçkünü yerləşdirib, onlar üçün mənzil şəraiti yaradıb, bu işlər heç də asan məsələ deyil. Dünyanın heç bir ölkəsi bu cür ağır yükün altından çıxa bilməzdi. Bunu dünyanın diqqətinə çatdırmaq əvəzinə, Azərbaycanın üzərinə yürüməsi düzgün deyil. Hesab edirəm ki, Azərbaycan rəhbərliyi və cəmiyyəti onların məlum fikrinə əhəmiyyət verməməlidir".

## Akif Nağı: "Azərbaycan 1 milyondan artıq məcburi köçkünü yerləşdirib, onlar üçün mənzil şəraiti yaradıb, bu işlər heç də asan məsələ deyil"




**Günel CƏLİLOVA**

# Rusiyadan sabiq senator Fərhad Əhmədovun ideoloji diversiyasına YAP-dan reaksiya yetərli oldumu...

**Məlum olduğu kimi, Rusiyada yaşayan azərbaycanlı milyarder, tanınmış iş adamı Fərhad Əhmədov bu günlərdə özünün "Facebook" səhifəsində 2020-ci il fevralın 9-da Azərbaycanda keçiriləcək növbədənkənar parlament seçkilərinə dair "yol xəritəsi" ilə çıxış edib.**



## Aydın Hüseynov: "YAP kiminsə məsləhətindən asılı olmayaraq daim yenilənir, gəncləşir"

F.Əhmədov öz yazısında Azərbaycanın siyasi arenasındakı mövcud durumu təhlil etməyə çalışıb. Həm siyasi hakimiyyətin, həm də müxalifətin ünvanına tənqidi fikirlərin yer aldığı təhlildə göstərilir ki, son parlamentin tərkibində hakimiyyətdəki qruplaşmaların "cib deputatları" ilə yanaşı, təsadüfi adamlar və islahatlarla ayaqlaşa bilməyən şəxslər olub. Və buna görə də parlamentin ciddi keyfiyyət dəyişikliyinə, deməli, yeni seçkiyə ehtiyac vardı. F.Əhmədov bir az da uzağa gedərək, hakim Yeni Azərbaycan Partiyasını da sərt tənqid edib. Bu partiyanın da ciddi yeniləşməyə ehtiyacının olduğunu deyib.

F.Əhmədovun məlum yazısına media və siyasilər tərəfindən ciddi reaksiya verilib. Əksər mövqelərdə rusiyalı milyarder ifadə etdiyi sərt fikirlərə görə tənqid olunur. Maraqlıdır ki, YAP-ı təmsil edən millət vəkilləri tərəfindən F.Əhmədovun yazdıqlarına reaksiya verilməyib. Elə bu səbəbdən də biz YAP-ı təmsil edən millət vəkillərindən mövzu ilə bağlı münasibət öyrəndik. Hakim partiyanı təmsil edən millət vəkili Aydın Hüseynov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, F.Əhmədovun Azərbaycanda gedən yenilikləri, inkişafı görməsi üçün onun özünün yenilənməsinə böyük ehtiyac var: "Düşüncəsini, baxış bucağını yeniləsə, nə varsa, öz rəngində görə bilər. Əks təqdirdə atılan böyük addımlarla bağlı özünün bildiyi səviyyədə qiymət verəcək. Necə ki, bunu öz məqaləsində yazıb. Deputatları da təhqir edib. Bu yolverilməzdir. Hər bir deputatı Azərbaycan xalqı seçir. Hər hansı bir millət vəkilini təhqir etmək həm də onların seçicilərinə hörmətsizlik sayılır. F.Əhmədov, faktiki olaraq, Azərbaycan vətəndaşının seçiminə hörmətsizlik edib. Azərbaycan parlamenti və onun deputatları üzərlərinə düşən bütün işləri yerinə yetirib. Bu gün isə YAP çox ciddi bir məsuliyyəti üzərinə götürərək, parlamentin yenilənməsi, qanunverici orqanın daha da müasirləşməsi, yeni çağırışlara tam cavab verməsi təlabilə Milli Məclisin buraxılması təşəbbüsü ilə çıxış edib. Ümummilli Lider Heydər Əliyevin zəkasından yaranan YAP Azərbaycanı məhv olmaqdan bugünkü vəziyyətə, inkişafa gətirib çıxarıb. YAP Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük nüfuza sahib olub. Hakim partiya Azərbaycan xaqının maraqlarını ifadə edir, dövlətçilik, qanunçuluq, sosial ədalət prinsiplərini əsas tutaraq inkişafını davam etdirir. YAP kiminsə məsləhətindən asılı olmayaraq, daim yenilənir, gəncləşir. F.Əhmədov kimilərin YAP-ı tənqid etməyə heç bir mənəvi haqqı yoxdur. Yaxşı olar ki, Rusiyada yaşayan milyarder öz piarı üçün daha uyğun mövzular seçsin".

**Məhəmmədəli QƏRİBLİ**

**Milli Elmlər Akademiyasının prezidenti Ramiz Mehdiyev İlham Əliyev haqqında yazdığı kitabda qeyd edib ki, Azərbaycanda yeni idarəçilər elitası formalaşır. Kitabın fəsillərindən biri olan "Azərbaycanın inkişafını XXI əsrin çağırışlarına uyğunlaşdıran Lider" başlıqlı məqalə Milli Elmlər Akademiyasının veb səhifəsində çap olunub.**

# 2025-ci ilədək Azərbaycanı idarə edən "common brain" siyasi elita...



Ramiz Mehdiyev məqalədə Prezident Administrasiyasında işlədiyi illər ərzindəki müşahidələrinə əsaslandığını qeyd edib. Məqalədə deyilir ki, Prezident İlham Əliyev dövlət idarəçiliyi sistemində islahatlar aparır, dövlət orqanlarında çalışanları və dövlət qulluqçularını "Qərbdə və Cənubi Asiya ölkələrində ən yaxşı ali məktəblərdə təhsil almış gənc mütəxəssislər hesabına yeniləyir. Yeni idarəçilər elitası formalaşır. Futurologların proqnozlarına görə, 2025-ci ilə qədər sabit inkişaf edən ölkələrdə, o cümlədən, Azərbaycanda "common brain" ("ümumi beyin") deyilən tamamilə yeni siyasi elita formalaşacaq. Bu, hər hansı radikallıqdan, dağıdıcı inqilabilikdən uzaq olan yüksək intellektli və praqmatik funksionerlərin ciddi strukturlaşdırılmış, iyerarxiya baxımından nizamlanmış vahid komandası olacaq".

R.Mehdiyev yazır ki, bu komandaya hazırkı Prezident İlham Əliyev başçılıq edəcək və o, "idarəetmə sisteminin əsas rəhbəri funksiyasını yerinə yetirməkdə davam edəcək".

R.Mehdiyevin haqqında söz açdığı "common brain" ("ümumi beyin") deyilən tamamilə yeni siyasi elitanı ətraflı necə təsəvvür etmək olar?

Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, məqalə ilə tanışdır və orada dərin təhlilin aparıldığını söyləyə bilər: "Sizin verdiyiniz sual da çox maraqlıdır. Hər halda, Azərbaycan siyasi aləmi üçün yeni bir formasiyanı, yanaşmanı özündə ehtiva edən yeni termindir.

İlk növbədə, gənclərin dövlət idarəçiliyinə cəlb edilməsi məsələsinə toxunmaq istərdim və deyəcəyim budur - bütün bunları çoxdan həyata keçirməli idik. Niyə məhz bu qənaətdəyəm? Sadə bir səbəb var. Təsəvvür edin, vətəndaşlarını bütün dünyadan təcrid etmiş bir sistem, SSRİ adlı bir məkan çökür. Yeni sistemə keçid isə başqa meyarlar, başqa yanaşma tələb edir. Bu zaman dünya təcrübəsində tətbiq edilən yeni iqtisadi-siyasi modelin daşıyıcılarının prosesə cəlb edilməsinə ehtiyac yaranır. Belə mütəxəssislərsə uzun müddət yox səviyyəsində olub.

İndiki halda, vəziyyət tamam başqadır. Azərbaycanın dünya iqtisadi-siyasi məkanına inteqrasiyasını təmin etməkdən ötrü artıq digər inkişaf etmiş ölkələrdə yüksək səviyyəli təhsil almış gənclər ordusu formalaşıb. Bax, bu gəncləri və yerlərdə təhsil almış perspektivli gəncləri dövlət idarəçiliyinə cəlb etməklə çox səmərəli layihələr işləyib həyata keçirmək olar.

İnqilabiliyin özü isə yaxşı mənada dağıdıcı olmalıdır. Yəni köhnə sistemi silib yerində yenisini qurmaq özü inqilab etməyə bərabər bir məsələdir. Lakin burada məsələ təkcə gənclərin dövlət idarəçiliyinə cəlb edilməsi ilə bitmir. İlk növbədə, ölkənin siyasi rəhbərliyinin iradəsi ortaya qoyulmalı, bütün bunların mərhələli şəkildə həyata keçirilməsi üçün şərait yaradılmalıdır.

Əlbəttə ki, gənclərə edilən "stavkanı" dəstəkləyirəm. Amma etiraf edək ki, onlardan həmən nəyisə düzəldib ortaya qoyacaqlarını gözləmək də olmaz. Dövlət idarəçiliyində əsas göstəricilərdən biri təcrübədir ki, bu da zamanla qazanılacaq.

Ümumilikdə isə prosesləri alqışlayır, gənclərimizə ölkəmizin inkişafı yolunda imza atacaqları qələbələrdə uğurlar arzulayıram".

Partiya sədrinin sözlərinə görə, "common brain" dediyiniz yeni konsepsiya isə dünya iqtisadiyyatı, siyasəti üçün yeni termindir: "Bu termin özündə intellektual potensialdan istifadə etmək şərtilə dünyanın iqtisadi-siyasi məkanına inteqrasiyanı nəzərdə tutmaqla bərabər, həm də dünyanı idarə edə biləcək vahid bir məkana qoşularaq səyləri bu istiqamətdə birləşdirmək anlamına gəlir".

***Məhəmmədəli QƏRİBLİ***

**Növbədənkənar parlament seçkiləri ərəfəsində gündəmə gələn əsas məsələ Milli Məclisdə gəncləşmə siyasətinin aparılmasıdır. Deputatlığa namizədliyin irəli sürülməsi üçün heç bir yaş məhdudiyyəti olmasa da, gənclərin parlamentdə təmsil olunması son vaxtlar ən çox qabardılan məsələlərdən biridir.**

# Milli Məclisin gənc deputatlar korpusu ictimai gözləntilərə uyğun fəaliyyət göstərə bildimi...



## *Ramil Hüseynov: "Sonuncu parlamentdə təmsil olunan gənc və cavan deputatlar onlara bəslənən ümidləri doğrultmadı"*

Bu günlərdə buraxılmış Azərbaycan Milli Məclisində şərti olaraq gənc - yaşı 40-dan az olan deputatlar təmsil olunurdu. Belə ki, V çağırış parlamentdə təmsil olunmuş gənc deputatlar müxtəlif dairələrdən seçiliblər. MM-in ən gənc üzvünə gəlincə, bu, 81 saylı Beyləqan seçki dairəsindən seçilən millət vəkili Şahin İsmayılovdur. Cəmi 29 yaşında deputat olan İsmayılov 1986-cı ildə anadan olub. Bundan başqa, digər gənc üzvlər bunlardır: Ülviyyə Həmzəyeva (1982), Sevinc Fətəliyeva (1980), Naqif Həmzəyev (1984), Müslüm Məmmədov (1980), Cavid Osmanov (1980), Vüsal Hüseynov (1980), Sona Əliyeva (1980), Kamran Bayramov (1980), Elşən Musayev (1980).

Bir çoxu gənc deputatların parlamentdə təmsil olunmasına bir dinamizm mənbəyi kimi yanaşır. Hesab edirlər ki, gənclərin orada seçiciləri təmsil etməsi keyfiyyət baxımından ciddi nəticələrə gətirib çıxara bilər.

Bu baxımdan maraqlıdır, buraxılmış parlamentin gənc deputatlar korpusu ictimai gözləntilərə uyğun fəaliyyət göstərə bildimi? Cəmiyyətin onlarla bağlı gözləntiləri özünü doğrultdumu?

Məsələyə münasibət bildirən VİP-in sədr müavini Ramil Hüseynovun sözlərinə görə, sonuncu parlamentdə təmsil olunan gənc deputatların cəmiyyətin gözləntilərini doğrultduğunu demək mümkün deyil:

> *"...onlar siyasi baxımdan yetərincə yetkin olmayıblar"*

"Baxmayaraq ki, əvvəllər onlarla bağlı müəyyən gözləntilər var idi. Gözlənirdi ki, gənc deputatlar Milli Məclisin işində aktiv iştirak edəcəklər. Ancaq tam məsuliyyətimlə deyirəm ki, sonuncu parlamentdə təmsil olunan gənc və cavan deputatlar onlara bəslənən ümidləri doğrultmadı. Ən başlıcası ona görə ki, sözügedən deputatların böyük hissəsi parlamentin plenar iclaslarında passiv fəaliyyət göstərməklə yadda qaldı. Hansısa fəal təşəbbüskarlıq nümayiş etdirdiklərinin şahidi olmadıq. Qanunverici orqanın fəaliyyətində bu özünü göstərmədi. Olsaydı, mütləq bu özünü göstərərdi. Digər tərəfdən, elə həmin cavan deputatlardan birinin Rəsulzadə ilə bağlı səsləndirdiyi fikirlər ölkədə böyük müzakirələrə səbəb oldu. Bu çoxlarının yadındadır. Deməli, parlamentdəki cavan deputatlar siyasi baxımdan yetərincə yetkin olmayıblar.

Tez-tez deyilir ki, gənclər parlamentdə təmsil olunmalıdır. Mənim 41 yaşım var və prinsipcə, bunun tərəfdarıyam. Ancaq gərək parlamentdə o gənclər təmsil olunsunlar ki, siyasi baxımdan onlar tam yetkin olsunlar. Siyasi baxımdan yetkin olmayan gəncin orada təmsil olunması arzuolunan deyil".

***Vidadi ORDAHALLI***

# Seçki ərəfəsi Azərbaycana Ermənistandan əlavə ənənəvi təxribat - "talış kartı"...

**Azərbaycan həssas məqama qədəm qoyub. Ölkədə növbədənkənar parlament seçkilərinin keçirilməsilə bağlı qərar qəbul edilib. Bəllidir ki, belə proseslərin cərəyan etdiyi zamanlarda ölkədə siyasi aktivlik artır. Növbəti parlament seçkiləri və ona hazırlıq dönəmi qış fəslinə təsadüf etsə də, ictimai hərarətin yüksəkliyi nəzərə çarpır.**



Müstəqillik əldə etdikdən sonra biz ölkəmiz üçün həssas olan məqamlarda daxili işlərimizə xaricdən müxtəlif formalarda müdaxilə cəhdlərini müşahidə etmişik. Belə təzyiqlərin bir çox hallarda şimal qonşumuz olan Rusiyadan start götürdüyünün də az şahidi olmamışıq. Hazırda da buna bənzər hadisələrin baş verdiyini izləyirik. Məsələn, Rusiyanın sabiq senatoru, əslən azərbaycanlı olan milyarder Fərhad Əhmədov birdən-birə Azərbaycan hakimiyyətinə özünün "yol xəritəsini" təqdim edir. Həmin sənəddə ölkənin oturuşmuş bütün siyasi institutlarını tənqid, bəzən isə təhqir də edir. Əksər analitik F.Əhmədovun məhz indiki məqamda bu şəkildə fəallaşmasını təsadüf saymır. Çünki indiyə qədər siyasi aktivliyi ilə diqqəti çəkməyən milyarderin birdən-birə böyük məqalə "yazması" həm də ciddi şübhələrə yol açır. Məsələyə münasibət bildirən bir çox ekspert həmin yazının F.Əhmədov tərəfindən yazıldığına şübhə ilə yanaşır. İddia olunur ki, məlum yazı hansısa beyin mərkəzinin ekspertləri tərəfindən hazırlanıb və ölkəmizə təzyiq vasitəsi üçün nəzərdə tutulur. Biz məhz F.Əhmədovun paylaşımlarının aşağısında gedən diskussiyalarda milyarderin şəxsən iştirak etdiyini də izləmişik. Oradan görünür ki, F.Əhmədov həm rus, həm də Azərbaycan dilində yazarkən kobud qrammatik səhvlərə yol verir. Bu da məlum yazının müəllifinin milyarderin olmadığı ilə bağlı səslənən fikirlərə haqq qazandıran detal sayıla bilər. Bir faktı da qeyd edək ki, F.Əhmədovun bu addımı Rusiyanın təkidilə atdığı qənaətində olanlar da az deyil. Ancaq hazırda Rusiyanın niyə Azərbaycana təzyiq etmək istəməsi də dərin sual kimi bizi düşündürməlidir. Çünki mövcud vəziyyətdə iki ölkə arasındakı münasibətlər çox yaxşıdır və normal məcrada davam edir. Hətta qeyd olunur ki, iki ölkə arasındakı əlaqələrin strateji tərəfdaşlıqdan strateji müttəfiqlik fazasına keçməsi də gözlənir. Onda bu qənaətə gəlmək olar ki, bu təzyiqlərin arxasında Rusiyada Putinə bağlı olmayan başqa dairələr durur. Çünki hazırkı situasiyada Rusiya üçün Azərbaycana hansısa formada təzyiqlər göstərmək məqbul sayılmır.

Biz ideya rəhbərlərinin Rusiyada oturduğu və Ermənistanın əli ilə reallaşdırılan başqa bir təzyiq metodunun da şahidi oluruq. Ermənistan hazırkı məqamda bizə təzyiq etmək üçün "talış kartından" istifadə etməyə çalışır. Rusiyada yaşayan və şərəfli talış xalqının adından sui-istifadə edərək müəyyən oyunlara girən, daha doğrusu, ermənilərə əl buyruqçuluğu edən bir neçə talış əsilli şəxsin Ermənistana toplaşdığı bildirilir.

İsmayil Şabanov, Zəhləməddin İbrahimov, Elşən Həsənov və Rüstəm, Zabil Məhərrəmov Ermənistan Milli Təhlükəsizlik Xidmətinin (MTX) onlar üçün İrəvanda xüsusi təşkil etdiyi "elmi konfrans"a yollanıblar. O da məlum olub ki, Moskvadan İrəvana bütün yol xərclərini, eləcə də onların Ermənistanda qalma xərclərini, habelə Zabil Məhərrəmova, İsmayıl Şabanova pul mükafatlarını da MTX ödəyib. İrəvanda onları qarşılamış və "elmi konfrans"ın təşkilatçısı kimi ictimaiyyətə tanıdılmış İrəvan Dövlət Universitetinin kafedra müdiri Vardan Voskanyan isə MTX-nin agenti və bu xidmətin keçmiş direktoru Artur Vanetsyanın yaxın adamıdır. Bu məlumat işarənin hara yönəldiyini açıq göstərir. Deməli, Azərbaycana indiki məqamda Rusiyadan qaynaqlanan təzyiqləri heç də Moskvanın rəsmi hakimiyyəti ilə əlaqələndirmək düzgün deyil. Aydın şəkildə görünür ki, bu işin arxasında Rusiyada güclü olan erməni diasporu və Ermənistan hakimiyyətinin birgə işbirliyindən doğan fəaliyyət durur.

*Məhəmmədəli QƏRİBLİ*

# Belə seçki platformalarının real gücü ola bilərmi...

**2020-ci ildə formalaşdırılacaq yeni parlamentə düşmək istəyənlərin sayı o qədər çoxdur ki, adam təəccüblənir. Azərbaycanda keçiriləcək parlament seçkilərində namizədliyini irəli sürənlər, deputatlıq iddiasında olan insanların əksəriyyəti Mərkəzi Seçki Komissiyasına müraciət etməzdən əvvəl öz təbliğatlarına sosial şəbəkələrdən başlayıblar.**




## *Azər Həsrət: "...qurum onları vaxtından əvvəl təşviqat kampaniyası aparmaqda ittiham edə bilər"*

Çoxu hesab edir ki, sosial şəbəkələr vasitəsilə təbliğat daha ucuz başa gəlir və buna görə də onlar xərc çəkib plakat, broşür çap etməkdənsə, bu yolu tuturlar. Əlbəttə, öz işləridir, biz onların seçiminə başqa cür yanaşa bilmərik. Diqqətimizi çəkən başqa məsələdir. Deputatlığa iddialı olan və öz reklamını, təbliğatını sosial şəbəkələr vasitəsilə quran insanların bəzilərinin təqdim etdikləri plakat və platformanın qəribəliyi diqqətimizi çəkdi. Bəziləri öz ad, ata adı və soyadlarının baş hərflərinə uyğun xüsusi cümlələr, ifadələr qururlar, digərləri öz adlarını daha iri şriftlərlə, ala-bula şəkildə verirlər, başqa biriləri isə savadsız statusları ilə diqqəti cəlb edirlər. Deputatlığa iddialı olanlardan biri öz adını, atasının adını və soyadını az qala krosvordvari təqdim edib. Onun təqdim etdiyi platformaya baxdıqda adama elə gəlir ki, bu namizədin platformasını əks etdirən plakatın üzərində beş-altı dilçi, filoloq işləyib. Söz yox ki, burada ifadə olunan sözlərin bir çoxunun mənasızlığı diqqəti çəkir.

Qarşıdan gələn parlament seçkilərində bu cür platformaların seçiciləri cəlb etmək gücü nə qədərdir? Bu insanlar bu şəkildə apardıqları kampaniya, piarla özlərinə elektarat toplaya bilərlərmi? Əlbəttə, suallar çox olduğu kimi, onların cavabları da çoxdur.

Ekspertlər hesab edirlər ki, deputatlığa namizədlərin təqdim etdiyi platformanın yığcamlığı, lakonikliyi və dəqiq məna ifadə etməsi, onun siyasi təsir gücü olması vacibdir. Siyasətə heç bir aidiyyəti olmayan və siyasi kampaniyalarda iştirak etməyən, piar aparmağın yollarını bilməyən şəxslərin "cəlbedici" platformalar təqdim etməsi normaldır. Ümumiyyətlə, bəzi insanlar elə bilir ki, platformasının hazırlanmasında nə qədər qiymətli sözdən, zərb-məsəldən istifadə etsə, bir o qədər seçici cəlb edə və səs qazana bilər. Amma reallıqlar bunun tam əksini deməyi tələb edir. Bir insanın özünün adının, soyadının, atasının adının baş hərfləri ilə başlanan xüsusi ifadələr quraşdırması və bunu öz platformasına daxil etməsi heç də onun real seçici cəlb etmək imkanlarını ortaya qoya bilməz. Bilirik ki, bu cür platformalar sosial şəbəkələrdə müzakirə edilir, bəzən lağ obyektinə, tənqid hədəfinə çevrilir. Gizlin deyil ki, bu cür platformaları təqdir edən azdır, o da həmin şəxslərin öz ətrafıdır.

## *"Bu cür plakatların təsir gücü zəifdir"*

Siyasi şərhçi Azər Həsrət "Bakı-Xəbər"ə bildirdi ki, çox zaman təqdim edilən bu cür platformalar reallığı əks etdirmir, onu kimlərsə montajla quraşdıraraq, o insanı lağ obyektinə çevirmək istəyir: "Bu cür platformaları sosial şəbəkələrdə mən də görürəm və hesab edirəm ki, onların çoxu quraşdırılmış ola bilər. Bir qrup şəxs, xüsusən də troll ordusu bəzi şəxsləri hədəfə almaq üçün belə plakatlar hazırlayıb paylaşımlar edir. Çünki bəziləri bu addımı atırlar və seçkidə iştirak edən insana qarşı bunu edirlər. Bilirsiniz, seçkidir və hər kəs də öz bildiyi, bacardığı şəkildə plakat hazırlayır. Bununla belə, bu cür plakatların təsir gücü zəifdir. Amma bu plakatları, platformaları dövriyyəyə buraxan və onları lağ obyektinə çevirənlərin məramları heç də xoş deyil".

A.Həsrət vurğuladı ki, onun özü ilə bağlı da belə paylaşımlar edirlər. Halbuki, özünün bu plakatdan xəbəri olmadığını deyən A.Həsrət vurğuladı ki, 2010-cu ildə deputatlığa öz namizədliyini 34 saylı Xətai II seçki dairəsindən verib və indi bəziləri həmin plakatın fotosunu paylaşıb onu hədəfə almaq istəyirlər. "Bu şəklin də altına hərə bir söz yazıb bu şəkli lağlağıya çevirmək istəyirlər. Əslində, bu plakatları paylaşan adamlar cəmiyyəti yanıltmaq məqsədi güdürlər. Şəxsən özüm də seçkiyə qatılmaq niyyətindəyəm, amma bunu hələ rəsmi şəkildə həyata keçirməmişəm, bu səbəbə və deputatlığa rəsmən qeydiyyata alınmadığıma görə hər hansı plakat, broşür, hər hansı təbliğat materialı hazırlayıb yaya bilmərəm, bu, qanunla da yasaqdır. Sadəcə olaraq, bir qrup adam bəzi insanların ya köhnə təşviqat materiallarını, ya da özlərinin düzüb qoşduqları saxta plakatları kimlərinsə adına paylaşıb cəmiyyəti çaşdırmaq istəyir. Əlbəttə, bu yolverilməzdir. Bu o nəticəni verə bilər ki, plakatları yayılan şəxslər namizədliyinin qeydə alınması üçün Mərkəzi Seçki Komissiyasına müraciət edərkən qurum onları vaxtından əvvəl təşviqat kampaniyası aparmaqda ittiham edə bilər" - deyə A.Həsrət vurğuladı.

*İradə SARIYEVA*

# Azərbaycan bəzi beynəlxalq kreditlərdən imtina etmək gücünə çatdı

**İqtisadi müstəvidə həyata keçirilən siyasətin başlıca məqsədlərindən biri də ölkənin xarici maliyyə qurumlarına daha az miqdarda borclanmasını təmin etməkdir. Belə vəziyyət xarici borc məsələsində Azərbaycanın daha əlverişli mövqeyə çıxmasını da uğurla təmin edir.**

Xatırladaq ki, elə hökumətin əsas məqsədlərindən biri də qarşıdakı dövr ərzində xarici borcun miqdarını əhəmiyyətli dərəcədə azaltmaqdır. Artıq bu xüsusda müvafiq addımlar da atılır. Belə ki, Azərbaycan hökuməti ölkədə məcburi köçkünlərin rifah halının yaxşılaşdırılması üzrə layihə üçün Dünya Bankından alınan kreditin qalan hissəsini istifadə etməkdən imtina edib və beləcə, layihənin başa çatma tarixi 31 dekabr 2020-ci ildən bu ilin sonuna dəyişdirilib.

Dünya Bankından verilən məlumata görə, Azərbaycan tərəfinin tələbi ilə bank kreditin 51,196 milyon dollarlıq istifadə olunmamış hissəsi üzrə ödənişi ləğv edib:"Layihənin dayandırılmasından sonra gələcək işlərin maliyyələşdirilməsi Azərbaycanın dövlət büdcəsi hesabına həyata keçiriləcək". Qeyd edək ki, Azərbaycan hökuməti hələ 2019-cu ilin yanvarında Dünya Bankından layihənin dayandırılmasını və qalan kredit məbləğinin qaytarılmasını istəmişdi. Bu müddət ərzində Dünya Bankı kreditin bir hissəsinin gözlənilən ləğvi nəzərə alınmaqla, kredit çərçivəsində tamamlanmalı olan işlərin həcmini hesablayıb. Bankdakı mənbə məsələ ilə bağlı bildirib: "Beləliklə, layihənin dörd komponentinin maliyyələşdirilməsi üçün nəzərdə tutulmuş 66,7 milyon dollarlıq kreditdən 15,504 milyon dollar istifadə edilib". Məlumat üçün bildirək ki, 2001-ci ildən bəri Dünya Bankı Azərbaycanda yaşayış şəraitinin yaxşılaşdırılması və 500 mindən çox məcburi köçkünün gəlirlərinin artırılması üçün ümumi dəyəri 128,2 milyon dollar olan üç kredit ayırıb. Amma artıq Azərbaycanın artan imkanları belə kreditlərin götürülməsinə hansısa ehtiyac yeri qoymur.



Digər tərəfdən, dünyada cərəyan edən proseslər fonunda da müxtəlif maliyyə qurumlarından alınan borcların azaldılması indi olduqca vacib sayılır. Əvvəla, qlobal iqtisadiyyatda yeni böhran təhlükəsinin meydana çıxması borc məsələsində də gərgin bir vəziyyət formalaşdırır. Artıq bu il dünya dövlətlərinin xarici borcları ticarət müharibələrinin artması və qlobal iqtisadi artım tempinin yavaşlaması fonunda bir qədər də artaraq yeni rekord hədd sayılan 69,3 trilyon dollara çatıb. Beynəlxalq Valyuta Fondu bildirir ki, hazırda ən çox borcu olan dövlət ABŞ-dır. Bu ölkə 23 trilyon dollar borcla öndə gedir. Növbəti yerlərdə 11,8 trilyon dollar borcla Yaponiya və 6,8 trilyon dollar borcla Çin qərarlaşıb. Hazırda qlobal borcun dünya üzrə ümumi daxili məhsulun dəyərinə nisbəti 82% təşkil edir ki, bu da bəşər tarixində rekord göstəricidir. Bu durumda hesab edilir ki, ayrı-ayrı dövlətlərin xarici borclarının artması onları iqtisadi cəhətdən daha asılı edir. Məsələn, işğalçı Ermənistanın timsalında xarci borc artımının necə iqtisadi asılılığa gətirib çıxardığını aydın görmək olar. Bu ölkənin müvafiq qurumlarının rəsmi məlumatına əsasən, Ermənistanın xarici dövlət borcu cari ilin ilk 10 ayının sonuna əsasən 5,5milyard dollar təşkil edir. Paralel olaraq həmin dövrdə daxili dövlət borcu 165,5 milyon dollar yüksələrək 1 milyard 478 milyon dollar təşkil edib. Beləliklə, Ermənistanın ümumi dövlət borcu 7 milyard dollara çatır. Ermənistan rezidentlərdən və qeyri-rezidentlərdən, yəni ölkənin daxilində və xaricində olan fiziki və hüquqi şəxslərdən borc götürür. Daxili rezidentlər son 15 ay ərzində Ermənistan tərəfindən beynəlxalq bazarlara buraxılan qiymətli kağızlardan daha çox alıblar. Beləliklə, xarici dövlət borcunun müəyyən həcmi Ermənistan rezidentləri tərəfindən alındığı üçün avtomatik olaraq daxili borca çevrilib. Belə vəziyyət o deməkdir ki, əslində, daxili borclanmanın artımı, həm də xarici borclanma məbləğini yüksəldir. Dövlət borcunun bundan sonra da artacağını, hətta Ermənistanın Maliyyə Nazirliyi də etiraf edir. Amma məsələ burasındadır ki, Ermənistan daha əvvəlki kimi güzəştli şərtlərlə borc götürə bilmir. İndi Ermənistana borc verən qurumlar ona faiz, müddət və digər belə məqamlarda öz şərtlərini diqtə edir və ölkəni özlərindən daha asılı hala salır. Belə vəziyyətdə Ermənistanın xaricdən maliyyə asılılığı da güclənir. İndi qarşıdakı dövr ərzində bu ölkə daha çox xarici maliyyə qurumlarının diqtəsi ilə hərəkət etməli olacaq. Amma Azərbaycanın artan maliyyə imkanları ölkə üçün tamam fərqli vəziyyət yaradır. Hazırda Azərbaycanın xarici dövlət borcunun ümumi məbləği 8,9 milyard dollardır. Bu isə ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir. Bu məbləğin daha da azaldılması üçün artıq indidən müvafiq addımlar atılır. Xatırladaq ki, hələ ötən il "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya" təsdiq edilib. Burada da əsas məqsədlərdən biri xarici borcun tədricən azaldılmasıdır. Belə ki, 2025-ci ildə Azərbaycanda xarici dövlət borcunun məbləğinin 6,5 milyard dollaradək azalması nəzərdə tutulur.

Bu, ÜDM-də borc səviyyəsinin indiki 19 faizdən 12 faizədək azalması deməkdir. Hazırda 50 milyard dollar təşkil edən valyuta ehtiyatları isə borc məsələsində Azərbaycana yeni manevr imkanları qazandırır. Digər tərəfdən, dövlət zəmanəti altında götürülmüş xarici kreditlər iqtisadiyyatın real sektoruna yönəldilib ki, bu da son nəticədə Azərbaycan iqtisadiyyatının artım templərinin yüksəlməsinə səbəb olacaq. Belə vəziyyətdə dünya maliyyə qurumları artıq Azərbaycana ən güzəştli şərtlərlə kredit təklif edir. Amma Azərbaycan artıq buna da lüzum görmür.

***Ramil QULİYEV***

# Türkiyədə real siyasi alternativ - Davudoğlu çox iddialı ambisiyalarla Ərdoğana əks düşərgədə fəallaşdı...

**Məlum olduğu kimi, Türkiyədə son bir neçə aydır siyasi proseslərdə müəyyən dəyişikliklər müşahidə olunur. Xüsusilə də bələdiyyə seçkilərindən sonra hakim Ədalət və İnkişaf Partiyasında (AKP) müəyyən narazılıqlar meydana gəlib. Düzdür, partiyadaxili narazılıqlar bundan əvvəl də var idi, amma bələdiyyə seçkilərindən sonra narazılıqlar açıq müstəviyə keçdi.**

Nəticədə partiyada tanınmış bir sıra şəxslər istefa verib. Belə ki, bir müddət əvvəl keçmiş iqtisadiyyat naziri və baş nazirin müavini Əli Babacan, daha sonra ölkənin xarici işlər naziri və baş naziri olan Əhməd Davudoğlu partiyadan istefa verdi.

AKP daxilində böhranın sonuncu bələdiyyə seçkilərindən sonra daha da sürətlənməsi bir sıra amillərlə bağlıdır. Çünki Türkiyənin hakim partiyası böyük şəhərlərdə uduzdu. Paytaxt Ankaranın və daha sonra İstanbulun itirilməsi iqtidar partiyası üçün böyük zərbə idi. Həm Türkiyə əhalisinin böyük qismi böyük şəhərlərdə məskunlaşıb, həm də ölkə iqtisadiyyatının əsas hissəsi həmin şəhərlərdə təmərküzləşib. Türkiyədə ümumdaxili məhsulun üçdə biri İstanbulun payına düşür. Cümhuriyyət Xalq Partiyası İstanbul və Ankaradan başqa İzmir, Antalya, Adana, Mersin kimi Türkiyənin önəmli şəhərlərində bələdiyyə seçkilərində qələbə qazanıb. Bütün bunlar əlbəttə ki, AKP-yə təsirsiz ötüşmür. Çünki məhz bu məğlubiyyətdən sonra partiya daxilindəki narazı şəxslər, qruplar daha da fəallaşdılar. Sözügedən narazıların da başında keçmiş baş nazir Əhməd Davudoğlu, sabiq iqtisadiyyat naziri, baş nazirin müavini Ali Babacan, eyni zamanda, Ali Babacana dəstək verən önəmli şəxslərdən biri - eks-prezident Abdulla Gül dayanır.




Bütün bunlardan sonra Türkiyədə yeni partiyanın qurulacağı ilə bağlı səslənən fikirlər nəhayət ki, reallığa çevrildi. Məlum olduğu kimi, Türkiyənin sabiq baş naziri Ə.Davudoğlu AKP-dən ayrılmış şəxslərlə birlikdə yeni siyasi partiya qurduğunu elan edib. Belə ki, Davudoğlu partiyanın fəaliyyətə başlaması üçün Daxili İşlər Nazirliyinə rəsmi müraciət ünvanlayıb. Dekabrın 13-də paytaxt Ankarada Gələcək Partiya adlı siyasi təşkilatın tanıtım toplantısı keçirilib. Partiyanın təsisçiləri 154 nəfərdən ibarətdir. Onlardan bir hissəsi hakim AKP-dən istefa verən şəxslərdir. Gələcək Partiyanın şüarı isə belədir: "Bizim bir gələcəyimiz var".

Partiyanın tanıdılması toplantısında çıxış edən sədr Ə.Davudoğlu deyib: "Keçmişi qaralamağa deyil, ortaq bir gələcək qurmağa, yeni şeylər söyləməyə gəlmişik. Üz turşutmağa deyil, təbəssüm göstərməyə gəlmişik. Hazırda bizi bir-birimizdən ayıran deyil, birləşdirən siyasət barədə danışmalıyıq".

Məlumat üçün qeyd edək ki, 1959-cu il fevralın 26-da anadan olan Ə.Davudoğlu 2009-2014-cü illərdə Türkiyənin xarici işlər naziri, 2014-2016-cı illərdə baş naziri vəzifəsini tutub. O, 2019-cu il sentyabrın 13-də hakim AKP-dən istefa verib.

Partiya yaratmaq asandır, amma siyasi təşkilat olaraq qısa bir vaxtda uğur qazanmaq hər partiyaya nəsib olmur. Məsələn, 2002-ci ildə o vaxt xarici işlər naziri İsmail Cəm, iqtisadiyyat naziri Kamal Dərviş, baş nazirin birinci müavini Hüsaməttin Özkan Büləd Ecevidin Demokratik Sol Partiyasından istefa verib yeni partiya yaratdılar. Ancaq bu onların nəinki uğur qazanmasına, əksinə, siyasi səhnədən silinməsinə gətirib çıxardı.

Davudoğlunun yaratdığı partiyanın da ciddi uğur əldə edəcəyi real görünmür. Məsələ ondadır ki, Davudoğlu 2009-cu ilin mayında xarici işlər naziri olana qədər əsasən elmi fəaliyyətlə məşğul olub. Ancaq hakim partiyanın xarici siyasət strategiyasının müəyyən olunmasında əsas fikir sahiblərindən biri idi. Davudoğlunun əsas strategiyası o idi ki, Türkiyənin qonşu olduğu bütün dövlətlərlə problemlərini həll etmək. Ancaq Davudoğlu xarici işlər naziri olandan sonra, əksinə, Türkiyənin qonşu dövlətlərlə yeni-yeni problemləri yarandı. Nə Türkiyənin Ermənistanla olan sərhədləri açıldı, nə də Yunanıstanla mübahisəli məsələlər yoluna qoyuldu. Xüsusən də 2011-ci ildən başlayaraq Türkiyənin Suriya ilə münasibətləri pozularaq kəskin şəkildə pisləşdi. Ona görə də Davudoğlunun xarici işlər naziri və baş nazir olduğu dönəmlərdə Ərdoğanı Suriya məsələsində yanlış yönləndirdiyinə dair Türkiyədə ciddi bir ictimai rəy formalaşıb.

**Bu faktor onun Ərdoğan qarşısında şansını ciddi şəkildə azaldır. Bundan başqa, Davudoğlunun qurduğu partiya yalnız mühafizəkar düşüncəyə sahib seçicilərin bir qisminin səsini almaq potensialına malikdir. Sözügedən düşüncəyə malik seçicilərin böyük hissəsi AKP-ni dəstəkləyir. Böyük şəhərlərdəki seçici elektoratı isə CHP-yə stavka edir. Son bələdiyyə seçkiləri buna əyani sübutdur. O baxımdan Davudoğlunun yaratdığı Gələcək Partiyasının uğur qazanacağı real görünmür.**

***Vidadi ORDAHALLI***

# Türkiyə Prezident Administrasiyası ABŞ Senatından keçən bədnam qətnamə layihəsini ikitərəfli əlaqələrin gələcəyinə təhlükə adlandırdı

**Türkiyə Prezident Administrasiyasının İctimaiyyətlə Əlaqələr İdarəsinin rəhbəri Fəxrəddin Altun "Twitter" səhifəsində ABŞ Senatının 1915-ci il hadisələrini "erməni soyqırımı" kimi tanıyan qətnamə layihəsini qəbul etməsi ilə bağlı paylaşım edib.**



Baki-xeber.com-un xəbərinə görə, F.Altun ABŞ Konqresinin üzvlərindən bəzilərinin məsələ ilə bağlı münasibətinin Türkiyə-Amerika əlaqələrinə xələl gətirdiyini söyləyib: "Dünən Senatın Xarici Əlaqələr Komitəsinin qəbul etdiyi sanksiya qərarı və bu gün Senatdan keçən qondarma "erməni soyqırımı" ilə bağlı qətnamə layihəsi ikitərəfli əlaqələrin gələcəyini təhlükə altına alır. "Sülh Çeşməsi" əməliyyatı başladığı gündən bəri hərbi əməliyyatımızın səbəb və məqsədlərini amerikalı həmkarlarımıza çatdırmışıq. Sanksiyalar və təhdidlər bizi milli təhlükəsizlik maraqlarımızı qorumaqdan çəkindirməyəcək. ABŞ Konqresinin bəzi üzvləri Suriyadakı hərbi əməliyyatlarımızdan narahat olduqları üçün milli təhlükəsizliyimizlə bağlı güzəştə getmək niyyətində deyilik".

F.Altun əlavə edib ki, YPG ilə ittifaq qurmaq əvvəldən bəri ağılsız siyasət idi: "Terror təhdidləri qarşısında vətəndaşlarımızın təhlükəsizliyini və rifahını təmin etməyə davam edəcəyik: "ABŞ Konqresinin bəzi üzvlərinin tarixi siyasiləşdirmək məqsədilə atdıqları hər addımda bu hadisələri araşdırmaq üçün birgə komissiya yaratmaq təklifimizi xatırlatdıq. Qeyd etdik ki, tarix millətləri bölməməli, əksinə, onları birləşdirməlidir.

Ancaq son bir neçə aydır ABŞ Konqresinin bəzi üzvləri NATO müttəfiqinin fikirlərini və həssaslıqlarını nəinki görməzdən gəlirlər, eyni zamanda, iki ölkə və cəmiyyət arasındakı münasibətləri gərginləşdirmək üçün məsuliyyətsiz hərəkət edirlər.

Bu qərarlar Türkiyə ilə ABŞ arasındakı əlaqələrə heç bir fayda gətirməyəcək. Daha əvvəl də qeyd etdiyimiz kimi, ermənilərdən fikir ayrılıqlarımızı elmi və akademik kanallar vasitəsilə uzlaşdıracaq səylərin ABŞ Konqresi tərəfindən ortadan qaldırılmasına imkan yaratmamalarını gözləyirik. Tarix bu qərarları ABŞ Konqresinin bəzi üzvlərinin Türkiyəyə qarşı məsuliyyətsiz və məntiqsiz hərəkətləri olaraq görəcək. Bu qərarlarda imzası olanlar isə iki ölkə əlaqələrində uzunmüddətli ziyana səbəb olan tərəf olaraq tarixə düşəcək".

# Erməni lobbisi saxta genosidin tanıdılması ilə ABŞ parlamentarizm tarixinə ən ağır zərbəni vurdu

**ABŞ Senatında keçirilən səsvermə nəticəsində 1915-ci il hadisələrini "soyqırım" kimi tanıyan qətnamə qəbul edilib. Senator Rob Menendez sosial media hesabında etdiyi paylaşımında qondarma "erməni soyqırımı"nı rəsmən tanıdıqlarını bildirib.**



*Əhəd Məmmədli: "Türkiyə "soyqırımı" tanıyan ölkələrin əksəriyyətilə əməkdaşlığını davam etdirir, hətta bəzisi ilə strateji tərəfdaşlıq səviyyəsinə kimi yüksəlib"*

Təmsilçilər Məclisindən də keçən qətnamə imzalaması üçün ABŞ Prezidenti Trampın masasına göndərilib.

Qətnamənin qəbuluna ilk sərt reaksiya Türkiyə Prezidentinin mətbuat xidmətinin rəhbəri Fəxrəddin Altundan gəlib.O, öz "Twitter" hesabında bildirib: "Qəbul edilən qətnamə ikili münasibətlərimizi təhlükəyə atır. Sanksiyalar və təhdidlər milli təhlükəsizlik maraqlarımıza mane ola bilməz".

Ardınca Türkiyə XİN ABŞ Senatının 1915 hadisələrini "erməni soyqırımı" kimi tanıması ilə bağlı bəyanat yayıb. Bəyanatda Senatın qərarı "tarixin necə siyasiləşdirilməsinin utancverici nümunələrindən biri" kimi şərh edilib: "ABŞ Senatının 1915-ci il hadisələri ilə bağlı 12 dekabr 2019-cu il tarixli qərarı hər cür tarixi özünüdərkdən və hüquqi əsaslardan məhrumdur.

Senatın bu qərarı tarixin necə siyasiləşdirilməsinin utancverici nümunələrindən biridir. Ancaq tarixi siyasi məqsədləri üçün istifadə edənlər həqiqətləri görməməzliyə vuraraq, əsla məqsədlərinə çatmayacaqlar. Bu qərar, eyni zamanda, Türkiyə-ABŞ münasibətlərinin inkişaf etdirilməsi yönündəki səyləri də dalana dirəyən təxribatçı təşəbbüsdür". Bəyanatda Türkiyənin regiondakı maraqlarını qorumaq üçün apardığı mübarizənin bu cür haqsız və mənasız qərarlardan təsirlənməyəcəyi və bu mübarizəyə qətiyyətlə davam edəcəyi bildirilir.

ABŞ Senatının qəbul etdiyi bu utancverici qərar Türkiyə-ABŞ münasibətlərinin gələcəyi üçün nə vəd edir və bunun ABŞ-la ölkəmizin münasibətlərinə necə təsiri ola bilər?

Politoloq Əhəd Məmmədli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ABŞ-ın bundan Türkiyəyə qarşı şantaj vasitəsi kimi istifadə edəcəyi məlum idi: "Nümayəndələr Palatasında bu məsələyə veto qoyulanda da bildirmişdik, ABŞ bu kartdan daim istifadə etməyə çalışacaq.

Təbii ki, bu artıq Türkiyə-ABŞ münasibətlərinə mənfi təsirsiz ötüşməyəcək. Biz bu məsələdə təəssüf ki, həm də bir xristian təəssübkeşliyi görürük. Çünki dünyanın bir çox xristian ölkəsinin parlamentləri bu "soyqırımı" tanıyıb. Rusiya, Fransa, ABŞ, Almaniya, İtaliyanı buna misal göstərə bilərik. Buna baxmayaraq, Türkiyə həmin dövlətlərin əksəriyyətilə əməkdaşlığını davam etdirir, hətta bunlardan bəzisi strateji tərəfdaşlıq səviyyəsinə kimi yüksəlib. Onlardan biri Rusiyadır. Hesab edirəm ki, ABŞ-la münasibətlərdə gərginləşmə müşahidə olunacaq. Amma bu, ABŞ-Türkiyə münasibətlərinin birdəfəlik kəsilməsi anlamına gəlməyəcək. Yəni Türkiyə NATO üzvlüyündən çıxmayacaq, ABŞ Türkiyəyə qarşı müharibə elan etməyəcək. Diplomatik əlaqələr davam etdiriləcək. Hər iki ölkənin bir-birinə böyük ehtiyacı olduğu üçün, hadisələr bizim dediyimiz istiqamətdə inkişaf edəcək. Türkiyə artıq bu məsələyə bir qədər soyuqqanlı yanaşmalıdır. Təbii ki, təpkisini də kənara qoymamalıdır. Gec-tez hansısa ABŞ Prezidenti də çıxışında "soyqırım" ifadəsini işlədəcək.

Bununla Türkiyənin üzərinə nə maddi, nə də siyasi öhdəlik qoyulmur. Bu, mənəvi bir maraq daşıyır.

Türkiyə tam güclənəndən sonra bu, elə də böyük əhəmiyyət daşımayacaq. Heç dövlətlərin yadına belə düşməyəcək. Elə bu məsələni də məhz Türkiyənin başını qatmaq üçün ortaya atırlar.

**O ki, qaldı Azərbaycana təsirindən, təsirsiz ötüşməyəcək. ABŞ və Azərbaycan arasındakı əlaqələri nəzərə alsaq, münasibətlərin tam kəsilməsi ilə nəticələnməyəcək. Hesab edirəm ki, Azərbaycan rəsmən Senatın qərarına öz etirazını bildirməlidir. Bu məsələdə gözləmə mövqeyində qalmaq olmaz".**

*Məhəmmədəli QƏRİBLİ*

# Növbədənkənar parlament seçkilərinə gedən müxalif partiyaları daha da zəif salan səbəb - dairələr üzrə vahid namizəd problemini həll edə bilmədilər...

**Parlamentin buraxılması ilə əlaqədar ölkə növbəti seçkilərə hazırlaşır. 2020-ci il 9 fevralda keçiriləcək növbədənkənar parlament seçkilərində Milli Şura istisna olmaqla, müxalifət partiyalarının, demək olar, hamısı iştirak edəcək.**



*Məhərrəm Zülfüqarlı: "Ona görə alınmır ki, müxalifət partiyaları bir-birinə güzəştə getmək istəmirlər"*

Yeni parlament seçkiləri ilə bağlı bir çox məsələ gündəmə gəlib. Onlardan biri müxalifətin bu seçkilərdə blok şəklində iştirak edib-etməmələri ilə bağlıdır. Bu istiqamətdə danışıqların aparılıb-aparılmaması da suallar doğurur. Bu səbəbdən, partiyaların bu dönəmdə birlikdə seçkiyə gedib-getməyəcəkləri maraq doğurur. Ancaq ilkin müşahidələr göstərir ki, müxalifət partiyaları blok şəklində deyil, ayrı-ayrılıqda seçkiyə getməkdə qərarlıdırlar. Artıq bir neçə müxalifət partiyası təkbaşına seçkilərə gedəcəyini bəyan edib.

O da məlumdur ki, müxalifət partiyalarını seçkidə zəif salan amillərdən biri də onların təkbaşına seçkiyə getmələridir. Hansı ki, blok şəklində seçkiyə getsələr, dairələr üzrə aralarında ən şanslı namizədi dəstəkləsələr, o zaman şansları böyük olacaq.

Maraqlıdır, müxalifət seçkiyə niyə blok şəklində getmir?

Məsələyə münasibət bildirən Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) Seçki Qərargahının rəhbəri Məhərrəm Zülfüqarlı bunu bir sıra amillərlə əlaqələndirdi: "Beynəlxalq təcrübədə müxalifətin seçkidə blok şəklində uğur qazanması nümunələri var. Məsələn, 1996-cı ildə Bolqarıstanda keçirilən seçkilərdə blok şəklində müxalifət uğur qazanıb. Azərbaycanda bununla bağlı maarifləndirmə işi aparsaq da, müxalifət bunda maraqlı deyil. Necə deyərlər, bu alınmır. Məsələn, bir neçə partiya birləşib blok yaradır və hansısa dairədən bir neçə namizəd irəli sürülür. Hansı ki, bunlar aralarında ilkin seçki keçirib daha şanslı namizədi müəyyən etməlidirlər. Seçkidə də o namizədə dəstək verməlidirlər. Ancaq bizdə müxalifət partiyaları bunu edə bilmirlər.

*"...real olmayan şəxslərin namizədliyi verilir"*

**Ona görə alınmır ki, müxalifət partiyaları bir-birinə güzəştə getmək istəmirlər. Bu da nəticədə ona gətirib çıxarır ki, real olmayan şəxslərin namizədliyi verilir. Onlar da seçkidə uduzur".**

*Vidadi ORDAHALLI*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycanın pressinq siyasəti Paşinyanın da axırını sürətləndirir...

**Azərbaycanın işğalçı Ermənistanı diz çökdürmək üçün tətbiq etdiyi pressinqlər, o cümlədən iqtisadi təzyiq siyasəti bu gün qarşı tərəfin daha acınacaqlı mövqeyə düşməsi ilə müşayiət olunur. Elə bunun nəticəsidir ki, Ermənistanın sosial-iqtisadi çöküşü dinamik xarakter almaqda, ölkəni tərk edənlərin sayı sürətlə artmaqdadır.**

Məsələyə münasibət bildirən "İrs" partiyasının sədr müavini Armen Martirosyan vurğulayır ki, bu gedişlə gələn ildə də Ermənistanda sosial-iqtisadi vəziyyətin pisləşməsi qaçılmazdır. Bunun qarşısını almaq üçün hökumətin strateji planı yoxdur.

O qeyd edib ki, Nikol Paşinyan rejiminin siyasəti ölkəni ancaq məhvə aparır: "Ermənistan yenə də sosial-iqtisadi, transmilli layihələrdən kənarda qalıb. Əlbəttə, burada Azərbaycan və Türkiyənin mövqeyi də mühüm rol oynayır. Amma Paşinyan iqtidarı da hansısa transmilli layihələrə Ermənistanı cəlb edə bilmədi. İrana bağlı belə layihələr yenə kağız üzərində qaldı. Ermənistan-İran dəmir yolunun çəkilməsi proqramı, "Şimal-Cənub" avtomobil yolu, ümumerməni bankı və ya Gümrü texnoparkı kimi layihələr haqqında yalnız danışılıb. Belə vəziyyətdə yenə Ermənistanı tərk edənlərin sayı artır. Xarici biznes Ermənistana gəlmək istəmir".

"Çiçəklənən Ermənistan Partiyası"nın parlament fraksiyasının deputatı Gevork Petrosyan da eyni mövqeni bölüşür: "Ermənistanda hökumət ictimaiyyətə ardıcıl olaraq məhkəmə prosesi və həbslər "yedizdirir", ancaq əhali hakimiyyəti belə şoulara baxmaq üçün deyil, yaxşı yaşamaq üçün dəyişdirib". Hakimiyyət dəyişikliyində Nikol Paşinyana və onu dəstəkləyən qüvvələrə dəstək vermiş bu partiyanın lideri, sahibkar Haqik Tsarukyan Ermənistana sərmayə qoymaq üçün mövcud mühitdən razı qalmadığını və xaricilərin ölkədən uzaq durduğunu bildirib. O, iş adamlarının sənədləri tərtib etməsi üçün süründürməçiliyin mövcudluğundan danışıb və Paşinyanın iqtisadi inqilab ifadəsi ilə razılaşmadığını deyib: "İqtisadi inqilab üçün, ilk növbədə, qanunlar dəyişdirilməli, sərmayə qoyuluşuna əlverişli, səmərəli şərait yaradılmalı, vergilər azaldılmalıdır. Amma bunlar yoxdur". Beləliklə, yerinə yetirilməyən vədlər Ermənistana xarici sərmayənin qoyulmasına imkan vermir. Ölkə iqtisadiyyatı daha çox Rusiyadakı erməni iş adamlarından asılı vəziyyətə düşür. Onlar da Moskvanın göstərişi ilə Ermənistandan sərmayələrini tədricən geri çəkir. Yaranmış şərait ölkədə siyasi gərginliyin də artmasına səbəb olub. Rəy sorğularının nəticəsinə əsasən, hökumətin nüfuzu azalmaqdadır. ABŞ-ın Beynəlxalq Respublikaçılar İnstitutunun 18 yaşdan yuxarı Ermənistanın 1200 vətəndaşı arasında ölkədə keçirdiyi rəy sorğusunun nəticələrinə əsasən, respondentlərin yalnız 55 faizi hakimiyyətə dəstək verir. Halbuki, bundan əvvəl hakimiyyətin dəstəyi əhali arasında 71 təşkil edirdi. Proqnozlara görə, əhali arasında hakimiyyəti dəstəkləyənlərin sayı artıq gələn ilin əvvəlində 50 faizdən də az olacaq. Mühacir ermənilərin, fəaliyyətinin dayandırmağa məcbur olan kiçik və orta biznes obyektlərinin sayının artması da bunu şərtləndirən başlıca faktorlardan sayılır.

Amma təbii ki, Ermənistanın yaşadığı mövcud böhranın başlıca səbəbi işğal siyasəti, Dağlıq Qarabağ münaqişəsinin hələ də həllini tapmamasıdır. Artıq düşmən ölkədə də yaxı başa düşürlər ki, Ermənistandakı sosial-iqtisadi böhran və onun nəticələri yalnız sülh, sabitlik və təhlükəsizlik şəraitində aradan qaldırıla bilər. Münaqişənin həll olunmaması və İrəvanın bu konfliktin dinc yolla nizamlanması üzrə danışıqlar prosesini süni şəkildə uzatması regional inkişafı əngəlləyir, təcavüzkar ölkənin özünü iflic edir. Belə olan halda Ermənistanın münaqişənin Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq hüquq normaları çərçivəsində həllinə razılıq verməsindən başqa yolu yoxdur. Yalnız konstruktiv mövqe sərgiləməklə münaqişənin həllinə zəmin yaradacağı halda Ermənistan regional layihələrə qoşula bilər. Iqtisadi layihələrin iştirakçısına çevrilməklə, təbii ki, İrəvan öz iqtisadiyyatını tənəzzüldən xilas edə bilər. Digər tərəfdən, işğal siyasətindən əl çəkməklə Ermənistan Türkiyə ilə sərhədlərin açılmasına da nail ola bilər. Bu da bu ölkənin uzun illərdən bəri iqtisadi böhranın əsas səbəblərindən biri olan blokada vəziyyətindən çıxması deməkdir. Amma Paşinyan iqtidarının bu reallığı qəbul edib müvafiq addımlar atmaması Ermənistanda hökm sürən ağır iqtisadi vəziyyəti hər keçən gün daha da pisləşdirir. Vəziyyət belə davam etsə, xalqın Paşinyanı da devirmək üçün küçələrə tökülməsi qaçılmaz sayılır. Bütün bunlar bir daha təsdiq edir ki, Dağlıq Qarabağ münaqişəsi Ermənistana, onun hakimiyyətinə, ən əsası da sadə ermənilərə heç nə qazandırmayıb. Erməni xalqı bu münaqişənin nəticəsi olaraq yalnız ağır sosial problemlər içərisində qalıb. Yuxarıda qeyd olunduğu kimi, ölkəni tərk edənlərin sayı da bu fonda durmadan artır. Ermənistan mediası da açıq etiraf edir ki, ölkədəki çətin iqtisadi vəziyyət səbəbindən on minlərlə insan evlərini tərk edib və xarici ölkələrə köçüb. Özü də ölkəni tərk edən erməni ailələri bu addımı sadəcə ac qalmamaq üçün atırlar. Artıq faktdır ki, ölkədə iqtisadi böhran, işğalçı siyasət nəticəsində yaranan hərbi şərait əhalinin öz dövlətində yaşaması üçün problem yaradır. Bu səbəbdən Ermənistanda əhalinin sayının azalması bundan sonra da qaçılmaz sayılır.

BMT-nin Əhali Fondunun Ermənistandakı icraçı nümayəndəsi Sovinar Arutyunyan bildirir ki, vəziyyət sürətlə pisləşir: "Bunun qarşısı alınmasa, 4-5 ildən sonra Ermənistan üzrə ölənlərin sayı doğulanların sayını üstələyəcək". Rəsmi statistikaya əsasən, Ermənistanda əhalinin 46,5 faizini kişilər, 53,5 faizini isə qadınlar təşkil edir. Bunun başlıca səbəbi isə emiqrasiya sayılır. Qarşıdakı dövr ərzində fərq nisbətinin daha da böyüməsi gözlənilir. Ermənistanın Əmək və Sosial Məsələlər Nazirliyinin demoqrafiya bölməsinin rəisi Artak Markosyanın sözlərinə görə də, reproduktiv insanların ölkəni tərk etməsinin ağır izləri Ermənistanda qalıb: "Mühacirət və demoqrafik strategiyanın olmaması 27 ildə acınacaqlı vəziyyəti yaradıb". Miqrasiya problemini həll edə bilməyən Ermənistan ordusunun perspektivdə daha ciddi şəkildə əsgər, hərbçi problemi ilə də üzləşəcəyi istisna edilmir. Artıq yaranmış durumda Ermənistanın siyasi-ictimai çevrələrində qadınların hərbi xidmətə çağırılması ilə bağlı müzakirələr genişlənir. Ermənistan ordusuna kütləvi şəkildə qadınların cəlb olunması o deməkdir ki, ordu ehtiyacları üçün qadınlardan yardım dilənir. Təbii ki, bunun da vəziyyətə hansısa formada müsbət təsiri gözlənilmir. Özü də bütün bunlar o fonda baş verir ki, gələn il ərzində yeni Qarabağ savaşının başlanacağına dair maraqlı proqnozlar verilir. Məsələn, ukraynalı politoloq Nataliya Belous bildirir ki, Azərbaycan 2020-ci ildə antiterror əməliyyatına başlayacaq: "Bunu artıq dəqiq demək olar. Amma bu çoxşaxəli hərbi əməliyyat Ermənistan ərazisində olmayacaq. Çoxları burda səhvə yol verir. Antiterror əməliyyatları Azərbaycanın bütün beynəlxalq təşkilatlar və ölkələr tərəfindən tanınmış sərhədləri çərçivəsində, Qarabağda baş tutacaq". Onun sözlərinə görə, Azərbaycanın iqtisadi və hərbi cəhətdən Ermənistandan qat-qat güclü olması bu hərbi əməliyyatların tez bir zamanda və uğurla başa çatmasına zəmanət verir: "Hazırda hər şey geosiyasi dəyişikliklərdən, yəni Rusiya amilinin mövcudluğundan və qaynar nöqtələrin olduğu Yaxın Şərqdəki vəziyyətdən asılıdır. Bütün bunlar prosesə zərər verə bilər, buna görə də Azərbaycan diqqətlə hərəkət edir. Hərbi əməliyyatların necə davam edəcəyi barədə danışmaq çətindir, amma Azərbaycan ilk növbədə heç kimə zərər verməmək üçün diplomatik tədbirlər görür və qarşı tərəfi konstruktiv danışıqlara çağırır. Amma 2020-ci il ermənilərə veriləcək son tarix olacaq. Bakı ən son halda silaha əl atacaq, bu da Ermənistan hakimiyyətinin mövqeyindən asılı olacaq. Bakının hərbi potensialından xəbərdar olan birisi kimi deyə bilərəm ki, hazırda Azərbaycanın çox güclü xüsusi təyinatlılardan ibarət ordusu var. Antiterror əməliyyatlarını da məhz onlar aparacaq. Azərbaycanın bu işdə heç kimin köməyinə ehtiyacı olmayacaq. Hətta ehtiyatda olan hərbçilər belə çağırılmayacaq". Ekspertin bu fikirlərini Ermənistana ünvanlanmış xəbərdarlıq kimi də qiymətləndirmək olar. Amma çıxış yolu da yox deyil. Bu yol Ermənistanın Qarabağın işğalından əl çəkməsindən, qonşulara yersiz və əsassız ərazi iddiaları irəli sürməkdən imtinasından, başqalarının əlində alət olmaqdan qurtulmasından keçir. Ermənistan bu istiqamətdə irəliləyərsə, ilk növbədə özünü xilas edər. Dağlıq Qarabağın işğalının davamı isə Ermənistanın indi ən yüksək səviyyədə mövcudluğunu təhdid edir. Bunlar bir daha təsdiq edir ki, Ermənistan dövlətçiliyinin gələcəyi Azərbaycanın ərazi bütövlüyünün bərpasından asılıdır. Münaqişə davam edəcəyi təqdirdə isə bu ölkənin iqtisadi tənəzzülü səngiməyəcək, əksinə, daha də dərinləşərək sosial-iqtisadi fəlakət həddinə çatacaq. Digər tərəfdən o da faktdır ki, Ermənistanın Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllindən yayınmaqla destruktiv mövqe tutması bütövlükdə Cənubi Qafqazda təhlükəsizliyə, iqtisadi inkişafa maneə yaradır. Bu isə regionda maraqlı qüvvələrin də istəklərinə cavab vermir. Elə bu səbəbdən son dövrlərdə beynəlxalq miqyasda Ermənistana Qarabağ təzyiqlərinin artması da aydın müşahidə olunur.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Azərbaycanda nağdsız əməliyyatlar zərurətə çevrilir, amma problemlər də çoxdur

**Aparılan hesablamalar göstərir ki, qarşıdakı üç il ərzində dünyada nağdsız əməliyyatların həcmi 1 trilyon dolları keçəcək. "Business Insider Intelligence" nəşrinin mütəxəssislərinin ikrincə, bu, mobil və rəqəmsal texnalogiyaların inkişafı sayəsində mümkün olacaq.**

Nağdsız əməliyyatlara ən böyük meylin Asiya-Sakit Ökean ölkələrində, o cümlədən Çin və Hindistanda baş verəcəyi gözlənilir.

Xatırladaq ki, Azərbaycanda da bu məsələ xüsusi diqqət mərkəzində yer alır. Ölkədə nağdsız əməliyyatların miqyasının genişləndirilməsi istiqamətində müvafiq addımlar atılır. Belə vəziyyət artıq vergi toplamalarına da təsirini göstərir. Çünki əməliyyat nağdsız aparıldığı zaman dövriyyəni daha asan izləmək olur. Artıq görülən işlərin nəticəsidir ki, cari ilin ilk 11 ayında vergi və gömrük xəttilə büdcəyə nəzərdə tutulduğundan əlavə 1 miylard manata yaxın vəsait toplanıb. Burada maliyyə əməliyyatlarının nağdsız şəkildə aparılması da öz sözünü deyir. Amma nağdsız əməliyyatlarla bağlı prolemlərin olması da faktdır. Söhbət hələ də nağd əməliyyatların miqdarının böyük olaraq qalmasından gedir. Cari ilin ötən dövürün təhlili göstərir ki, hüquqi və fiziki şəxslər tərəfindən nağdlaşdırılan vəsaitin məbləği artıq 3 milyard manata çatır. İndiki tendensiya davam etsə, gələn il üçün bu göstərici 3,6 milyard manat təşkil edəcək.

Deməli, nağd əməliyyatların miqdarının məhdudlaşdırılmasına hələ də ciddi ehtiyac var. Araşdırmalar göstərir ki, nağd əməliyyatların miqdarının geniş olmasına ticarət və satış obyektlərində pos-terminlların azlığı, bir çoxlarında isə yoxluğu da ciddi şəkildə təsir göstərir. Buna qarşı məhz gələn ildən ciddi addımlar atılması nəzərdə tutulur. İqtisadiyyat Nazirliyinin vergi siyasəti baş idarəsinin rəisi Samirə Musayeva qeyd edir ki, elə Vergi Məcəlləsinə edilmiş dəyişikliklərdə pos-terminalların quraşdırılması məcburi olan obyektlərdə onların quraşdırılmasından və nağdsız ödənişlərin qəbul olunmasından imtina hallarına görə maliyyə sanksiyalarının tətbiqi yer alıb: "Bu hal ilk dəfə baş verdikdə 1000 manat, ikinci dəfə olsa 3000 manat, üçüncü və növbəti ildə isə 6000 manat maliyyə sanksiyası tətbiq olunacaq". Bundan başqa, dəyişikliklərə əsasən, ƏDV ödəyicilərinin bank hesabları üzrə aparılmış əməliyyatları barədə məlumatların elektron formada banklar tərəfindən aylıq olaraq vergi orqanlarına təqdim edilməsi nəzərdə tutulur. Ekspertlər bildirir ki, pos-terminlların sayı artsa, ondan istifadə məcburi hal alsa, ölkədə nağdsız əməliyyatların miqdarı da xeyli çoxalacaq. Bu, həm də daha çox vergi daxilolmaları deməkdir. Elə İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin sədri Ruslan Atakişiyev də məsələyə bu prizmadan yanaşır.



O bildirir ki, artıq iri supermarketlərdə pos-terminallar var: "Bu məsələ əsasən indiyədək pos-terminallar quraşdırılmayan ictimai iaşə və ticarət mərkəzlərinə aiddir. İri ictimai iaşə və iri ticarət mərkəzlərinə bununla bağlı baxış keçiriləcək. Amma xırda obyektlər bəzi hallarda bunu quraşdırmaqdan boyun qaçırır. Çünki pos-terminalların quraşdırılması pulsuz olsa da, xidmət haqqına görə banklar minimum 50 manat tələb edirlər. Xırda obyektlərdə əməliyyatlar az olduğuna görə onlar pos-terminal quraşdırmaqda maraqlı olmur. Pos-terminalların quraşdırılması pulsuzdur, banklar bu aparatı pulsuz verir, amma xidmət haqqına görə hər ay minimum 50 manat pul istəyirlər. Digər tərəfdən, bu aparatlar bahalıdır, bank da öz pulunu çıxarmaq istəyir. Dövlət bu məsələdə dəstək verə bilər ki, banklar xırda obyektlərə bu istiqamətdə güzəşt etsinlər. İnsanların hamısı kartla ödəniş etməyə meylli olsa, bu problem həll ola bilər". Ekspertin fikrincə, pos-terminalların quraşdırılması ilə bağlı məcburiyyət məsələsi genişlənərsə, artıq onu tətbiq edən ticarət mərkəzi, ictimai iaşə mərkəzi özü maraqlı olacaq ki, alıcıdan pulu nağd şəkildə yox, nağdsız qəbul etsin: "Bu zaman həmin obyektlər kartla ödənişlərin qəbulunda güzəştlər, endirimlər paketi təqdim edəcəklər ki, alıcılar kartlardan daha çox istifadə etsinlər. Digər tərəfdən, pos-terminalların quraşdırılmasından yayınma halları həmin müəssisələrə sanksiyalar tətbiq etməyə gətirib çıxara bilər". Ekspert bildirir ki, regionlarda işləməyənlərin əksəriyyəti kartlardan istifadə etmir: "Pensiyaların verilmə vaxtı bankomatların qabağında uzun növbələr yaranır. Bu onu göstərir ki, karta pul oturan kimi onu çıxardırlar. Maariflənmə də aparılmalıdır ki, onlar alış-verişləri kartla etsinlər.

Bu məsələlər kompleks şəkildə həll edilməli, stimullaşdırıcı metodlar olmalı, cəmiyyət maariflənməlidir. Burada cəmiyyətin bütün təbəqələri nəzərə alınmalıdır". Hər halda məsələyə, lazım gələrsə, inzibati müdaxilə vacib sayılır. Çünki bu, nəticə etibarilə ölkədə iqtisadi şəffaflıq dərəcəsini yüksəldir. Dövlət özü də elə bunda maraqlıdır.

**Digər tərəfdən vergi, rüsum, icarə haqqı və digər büdcə ödənişlərinin, həmçinin kommunal, rabitə və digər kütləvi xidmətlər üzrə ödənişlərin mərkəzləşdirilmiş qaydada toplanması məqsədilə Mərkəzi Bank tərəfindən yaradılmış "Hökumət Ödəniş Portalı" da indi prosesdə vacib rol oynayır. Onun infrastruktur imkanlarının inkişaf etdirilməsi ölkədə nağdsız ödənişlərin genişləndirilməsinə əlavə imkanlar yaradır. Belə ki, artıq bundan istifadə etməklə regionlarda, kənd yerlərində belə nağdsız ödənişlər həyata keçirmək mümkündür. Sadəcə, indi insanların daha çox nağdsız ödənişlərdən istifadəsini təmin etmək üçün müvafiq addımların atılmasına ehtiyac var.**

***Nahid SALAYEV***

# Azərbaycan Dünya Bankının kreditindən imtina etdi - dövlətin gücü nümayişdə...

**Xəbər verildiyi kimi, Azərbaycan hökuməti ölkədə məcburi köçkünlərin rifah halının yaxşılaşdırılması (IDP Living Standards and Livelihoods) üzrə layihə üçün Dünya Bankından alınan kreditin qalan hissəsini istifadə etməkdən imtina edib və beləcə layihənin başa çatma tarixi 31 dekabr 2020-ci ildən bu ilin sonuna dəyişdirilib.**

*"Vaxtilə Azərbaycan xarici maliyyə qaynaqlarından asılı idi, ancaq indi donor ölkəyə çevrilib"*

***Pərviz Heydərov:** "...ölkənin maddi imkanlarının inkişaf etməsi ilə bağlıdır"*

Dünya Bankının yaydığı məlumatda qeyd olunur ki, Azərbaycan tərəfinin tələbi ilə bank kreditin 51,196 milyon dollarlıq istifadə olunmamış hissəsi üzrə ödənişi ləğv edib: "Layihənin dayandırılmasından sonra gələcək işlərin maliyyələşdirilməsi Azərbaycanın dövlət büdcəsi hesabına həyata keçiriləcək".

Azərbaycanın Dünya Bankının kreditindən imtina etməsi onu deməyə əsas verir ki, artıq ölkəmizin iqtisadi gücü məcburi köçkünlərin rifah halını öz vəsaiti hesabına yaxşılaşdırmağa imkan verir.

İqtisadçı-ekspert Pərviz Heydərov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Azərbaycanın Dünya Bankının kreditindən imtina etməsi ölkənin maddi imkanlarının inkişaf etməsi ilə bağlıdır: "Dövlət başçısı dəfələrlə öz çıxışında qeyd edib ki, Azərbaycanın xarici dövlət borcunun artmasının əleyhinədir və bunun qarşısının alınmasının tərəfdarıdır.

Prezident hökumət qarşısında vəzifə qoyub ki, xarici maliyyə qaynaqlarından vəsaitlər əldə edilməsindən yan keçilsin. Zəruri olarsa, buna əl atıla bilər. Ümumiyyətlə, bu istiqamətdə görülən işlər Azərbaycanın xarici dövlət borcunun artmasının qarşısının alınması məqsədi daşıyır. Nəzərə almaq lazımdır ki, bu yöndə aparılan siyasətin təməlini Prezident qoyub. Azərbaycanın Dünya Bankının kreditindən imtina etməsi həmin məsələnin tərkib hissələrindən biridir".




İqtisadçı onu da vurğuladı ki, Azərbaycanın hazırkı maddi vəziyyəti kifayət qədər inkişaf edib: "Vaxtilə Azərbaycan xarici maliyyə qaynaqlarından asılı idi. Ancaq indi sevindirici haldır ki, Azərbaycan donor ölkəyə çevrilib. Nəzərə almaq lazımdır ki, Azərbaycan daxili tələbatını, investiya layihələrini öz gücünə maliyyələşdirir. Bununla yanaşı, qonşu ölkələrdən borc üçün müraciət edilirsə, biz onlara yardım edirik. Azərbaycanın maliyyə durumu yaxın illər ərzində daha da artacaq. Xüsusilə də qeyri-neft sektorunun inkişaf etməsi valyuta ehtiyatının artmasına səbəb olacaq".

***Günel CƏLİLOVA***

# Tikinti şirkətlərinə böyük vergi jesti - "novostroyka" qiymətlərini nə gözləyir...

**Gələn ildən bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər (özünə məxsus və ya cəlb edilən vəsait hesabına əhalinin fərdi (şəxsi) ehtiyaclarını ödəmək və ya kommersiya məqsədləri üçün öz gücü ilə və ya müvafiq ixtisaslı peşəkar sifarişçi, yaxud podratçı cəlb etməklə bina tikdirən, habelə bu tikintinin, habelə başa çatmış obyektin mülkiyyətçisi olan hüquqi və ya fiziki şəxslər) barədə vergi ödənişi əvvəlki qaydada olmayacaq. Bu, Vergi Məcəlləsinə təklif edilən dəyişikliklərdə əksini tapıb.**

*"Bu addım tikinti sektorunda mühasibatlıq uçotunun normal vəziyyətə gətirilməsi və ölkə üzrə mərkəzləşdirilmiş statistik rəqəmlərə çıxmaq üçün atılır"*

***Nüsrət İbrahimov:** "...mənzillərin satış qiymətinə əhəmiyyətli təsiri olmayacaq"*




Həmin şəxslər vahid vergi rejimində (əlavə dəyər vergisi (ƏDV) və mənfəət vergisi metodu) fəaliyyət göstərəcəklər. Eyni zamanda, gələn ildən bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən dövlətə ayrılan hissə təqdim edildikdə, əmlaka görə əldə edilən gəlirlər vergiyə cəlb olunan gəlirlər hesab edilməyəcək. Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən tikilən binanın yaşayış sahəsinin dövlətə ayrılan hissəsinin təqdim edilməsi əlavə dəyər vergisindən (ƏDV) azad ediləcək.

Maraqlıdır, tikintidə yeni vergi rejiminin tətbiqi mənzil bazarındakı qiymətlərə necə təsir edəcək?

Daşınmaz əmlak üzrə ekspert Nüsrət İbrahimov bildirdi ki, bina tikintisi ilə məşğul olanlar üçün yeni vergi sistemi gələn ildən qüvvəyə minəcək: "Azərbaycanda tikinti sahəsində yeni vergi rejiminin tətbiqinin mənzillərin satış qiymətinə əhəmiyyətli təsiri olmayacaq. Tikinti şirkətlərinin marjası əvvəlkinə nisbətən xeyli azalsa da, yenə də böyükdür. Əvvəllər marja 80 faiz idisə, hazırda 35-40 faiz civarındadır.

Məlumat üçün bildirim ki, ümumilikdə, sənayedə bu göstərici 10-20 faizdir. Ona görə də mənzillərin satış qiymətlərinə təsiri inandırıcı deyil". Onun sözlərinə görə, bu addım tikinti sektorunda mühasibatlıq uçotunun normal vəziyyətə gətirilməsi və ölkə üzrə mərkəzləşdirilmiş statistik rəqəmlərə çıxmaq üçün atılır: "Bu dəyişiklik tikinti şirkətlərinin hesabatlarını düzgün hazırlaması üçündür. Son nəticədə vergi uçotunun aparılmasına nail olunacaq".

***Günel CƏLİLOVA***

**Böyük Kilikiya evinin baş keşişi birinci Aram (Bedros Keşişyan, 1947): "Erməni xalqının ən qüdrətli silahı bu xalqın birliyidir. Onun onurğa sütunu isə Ermənistan və Arsakdır. Bu birliyi sarsıdan istənilən cəhdi biz rədd edirik. Bu mənim vəsiyyətimdir".**

# İbtidai hay sürüsünün instinkt-mistik təsəvvürünün formalaşması mərhələlərinin Həbəş və Misir dövrü...

**(XI məqalə)**

Qədim Roma mütəfəkkirlərinin (Homerin "İlliada", Herodotun "Tarix", Strabonun "Coğrafiya" (XVII kitab), Platonun (e.ə.429-347-ci illər, "Timey" və "Kritiy" əsərləri), Ksenefontun (e.ə. 430-356-cı illər, "Anabasis", "Yunan tarixi"), Bizanslı Prokopiya Kesarskinin (490-565-ci illər, "Müharibələrin tarixi", "Gizli tarix"...) əsərlərində bəşər sivilizasiyasının Həbəş və Misir mərhələsi həm də insan cəmiyyətinin təkamül dövrləri kimi qiymətləndirilir və bu təbii, tarixi-coğrafi ərazilər bəşər ictimai cəmiyyətinin formalaşmasının qədim məkanı kimi qəbul edilir. Qəbilə-tayfa birliklərinin cəmiyyət-dövlət halında təşəkkülündə təbii-coğrafi amillərin və ictimai-siyasi proseslərin, silahlı qarşıdurmaların, hərbi-tarixi mübarizələrin (müharibələrin), dini-mistik dünyagörüşü təlimlərinin təsiri qədim Həbəş və Misir dövlətlərinin (ərazilərinin) hüdudunda insan cəmiyyəti timsalında kifayət qədər əsaslandırılır. Eləcə də qədim roma-yunan və ərəb tarixçilərinin (Əbül Həsən Əli əl-Məsudi (IX əsr - 956-cı il, ərəb "Herodotu"), İbn-Haldun (1332-1405) əsərlərindən də istifadə edilir.

Afrika qitəsinin şərq ərazilərində qəbilə-tayfa birliklərinin regional ərazi üzrə paylanması (miqrasiyası və sonrakı məskunlaşma mərhələləri) barədə qədim yunan, Roma, eləcə də rus alimlərindən A.A.Nemirovskinin (1968) "Qədim Şərq"... əsərlərində də kifayət qədər ətraflı məlumatlar verilir.

Bu mərhələ qədim Həbəş və Misir tarixinin e.ə. IV minillik dövrünü əhatə etdiyindən, bəşər sivilizasiyasının təkamülündə Nil çayı hövzəsinin, xüsusilə onun yuxarı axınlarının təbii-coğrafi şəraitinin rolu müstəsna əhəmiyyət daşıyır. Belə ki, Yuxarı Misir hakimlərinin Həbəş ərazilərindəki təbii sərvətlərdən istifadə etməsi, həmin ərazilərə hərbi yürüşlərin təşkili, Omo çayı hövzəsindən köçəri qəbilə-tayfa birliklərinin Nil hövzəsinə miqrasiyası və bu təbəddülatların getdikcə miqyasının artması, eləcə də bu proseslərdə kahinlərin yaxından iştirak etməsi təkamül mərhələsinin aparıcı qüvvəsinə çevrilib. Həbəş dağlıq yaylasından Nil çayı hövzəsinə köçürülən (və ya köçən) tayfa-qəbilə birlikləri, ibtidai insan sürüləri (protohay tayfaları) iqlim dəyişikliyi ucbatından (yay dövründə güclü yağışların yağması, Nil çayı vadisinin su altında qalması) tez-tez yerini dəyişməli olub və bu məqsədlə kahinlərin (sehrbazların) xidmətində durmağa məcbur olublar, çünki onlar həm də nisbətən təhlükəsiz ərazilərdə məbədlər tikib orada yaşayırdılar. Dağıdıcı və fəlakətli təbii proseslərin (zəlzələ, daşqın, quraqlıq, vulkan püskürməsi, çay daşqınları, meşə yanğınları...) baş verməsində mistik təsəvvürlərin izahı Həbəş və Yuxarı Misir kahinlərinin qəbilə-tayfa birlikləri üzərində üstünlüklərini qorumaqla yanaşı, onlardan istədikləri kimi istifadə etmələri üçün də yararlı olub. Omo və Mavi Nil çayları hövzəsində mağaralarda, çay vadilərində, cəngəllikli-liyanalı meşələrdə həyat tərzi sürən ibtidai protohay sürüləri (Tana gölü sahillərində və indiki Tiqrau əyalətində) həm də Həbəş və Misir kahinlərinin mistik dünyagörüşünün və təlimlərinin diqtəsi-əsarəti altında olublar.

Nəticədə, e.ə. VI-IV minilliklərdə Nil çayı vadisində qədim Həbəş və Misir kahinlərinin xristianlığa qədərki mistik-mərasim təlqinlərində, ibadətlərində istifadə edilən papirusların (yarpaqları, gövdələri) becərilməsində daha çox qul halında gətirilən insan sürülərindən (o cümlədən protohaylardan) istifadə edilib. Çünki Yuxarı Misir nomlarının e.ə. V-IV minilliklərdə Həbəş dağlıq yaylasında, Omo çayı hövzəsində hərbi yürüşlərinin bir istiqaməti də, ibtidai hay sürülərinin mağara həyat tərzi sürdükləri ərazilər də (indiki Tiqrau əyaləti həm də II-XII əsrlərdə mövcud olmuş Aksum çarlığının ərazisi idi (Amxara-Afar regoinu daxilində, Sudanla həmsərhəddir) onlara aid idi. İnzibati ərazi baxımından Aksum çarlığında ilk rəsmi din kimi xristianlıq 325-ci ildə qəbul edilib. Hayların (protohayların sürülərinin) bu dinin qədim nümayəndələri olması barədə iddiaları məhz bu tarixdən və həmin minilliklərin tarixi-coğrafi keçmişindən qaynaqlanır.

Yuxarı Misir nomlarının ərazilərində suvarma əkinçiliyi və papirus yetişdirilməsi ilə məşğul olan, eləcə də Tana gölü hövzəsindəki ibtidai hay sürüləri iqlim-landşaft elementlərinin təsirindən asılı olmayaraq genetik qan-yaddaş kod daşıyıcılarının refleksinə uyğun assimlyasiya prosesinə uyarlığı cəhətdən (varolma instinktinin güclü olması) artıq e.ə. IV minilliyin başlanğıcında kahinlərlə-sehrbazlarla əlaqələr qurulub və öz xislətlərinə uyğun olaraq onlardan istifadə ediblər.

Bu proses Tana gölü sahillərində minilliklər boyunca xüsusilə öz davamlılığı və əhatəliyi ilə fərqlənib. Gölün cənubunda Hayasa yaşayış məntəqəsinin mövcudluğu geniş və hərtərəfli tədqiqatın obyekti kimi əhəmiyyətlidir.

Həbəş dağlıq yayalasından və Omo çayı vadilərindən qəbilə-tayfa birliklərinin köçürülməsi prosesinin bir hissəsi həm də Nil çayının mənbəyi hövzəsində Tana gölü sahillərində və adalarında (Daqa, Zere adaları) məskunlaşan protohay sürülərinə də şamil edildiyindən, bəzi xarakterik toponimlərin izahına böyük ehtiyac var (bu adalarda qədim məbədlər möbcud olub). Belə ki, Mavi Nil çayı hövzəsinin və Tana gölünün (ada və yarımadaları) Tiqrau əyalətinə (bu əyalətin Mekele şəhərində də qədim kahinlərin məbədi qalmaqdadır) bitişik, yaxın ərazilə-



ri açıq landşaft örtüyündən və mağaralardan ibarətdir. Bu ərazilər qədim insan yaşayış məskənləri kimi indi beynəlxalq turizm obyektləri kimi xəritələşdirilib. Həmin məkanlar e.ə. IV minillikdə Həbəş və Misir kahinlərinin təsiri altında olan qəbilə-tayfa birliklərinin yayıldığı sahələrin hüdudları daxilindədir. Bu mağaralar tiqran və tiqrau sürülərinin yerli tayfa birlikləri ilə sıx assimilyasiya mərkəzi kimi qeyd olunur. Çünki məhz bu hissədə sonralar Arma bölgəsinin əsası qoyulub (sonralar Xayasa (Hayasa) adlanıb) və protohay sürülərinin sıx cəmləşdiyi əyalətə çevrilib. Yerli kahinlərdən əxz edilən baş örtükləri, əllərinə aldıqları əsanın forması və bəzəkləri, üstlərinə taxdıqları nümunələr (atributlar) əski dini inancların və mistik təsəvvürlərin hay keşişlərinə tarixi irs nümunəsidir. Hay mifologiyasında şir, qartal, öküz totemlərinin ilahiləşdirilməsi də həmin dövrün yadigarlarındadır. Bu mifoloji mənbələrdən qaynaqlanan hay eponimlərindən Aram-əski Hay əcdadlarının şəcərə davamçısı, oğlu Ara, Anuşavan (Aranın oğlu), eləcə də epik qəhrəmanları Tiqran... göründüyü kimi, qədim Həbəş və Misir ərazilərində formalaşan protohay sürülərinin, yerlərinin adlarının (toponimlərinin) ifadəsidir. Və yaxud, hay mifoloji təsəvvüründə onların əcdadlarının beşiyində duran Aykın (Xayın) yaratdığı Aykazuni sülaləsinin adı sırf həmin tarixi-coğrafi məkanların nişanəsinə uyğundur.

Bu yerdə bir cəhətə diqqət yetirmək vacibdir. Özəl hay xislətinin və düşüncəsinin ədəbi-bədii təcəssümü qan-gen yaddaşı kimi minillikləri keçib, XX əsrdə iki şəxsin timsalında da dəqiq ifadəsini tapıb: ata-oğul, rəssam və bəstəkar Martiros və Qazaras Saryanların timsalında.

Rəssam M.S.Saryan (1880-1972) 1910-1911-ci illərdə Türkiyə, İran və Misir ərazilərinə səyahət edərək, qədim dövrün məbədləri ilə maraqlanıb və qədim Misir miniatür xəzinə və örtük nümunələri ilə tanış olub. Sonra, özünün dediyi kimi, keşmişdən müasirliyə gələn yolun təsviri ifadəsi kimi "Eqişe çarensin portreti" (1923), "Mənim ailəm" (1929) simvolik rəsmlərini işləyib. Bəstəkar Q.M.Saryan (1920-1998) isə atasının qədim minilliklərlə bağlı gen yaddaşının nisgilinə rəğmən "Səni tərənnüm edirəm, Vətən" mahnısını bəstələyib (1955).

İbtidai protohay sürülərinin müasir nümunələrinin (qalıqlarının) timsalında əski Şərqi Afrika dini-ibadət təlimlərinin ruhunda, qədim Həbəş və Misir kahinlərinin təsiri altında onların pozulmaz qan-gen yaddaşı kimi mifik təsəffürlərinin dəyişilməzliyində (qartal, şir təsvirlərinə üstünlük vermələri, gerblərində və adlarında istifadə etmələri), tiqran, tiqr, tiqrau tayfalarının mərasimlərində istifadə etdikləri bəzək əşyalarına oxşar aksesuarlara üstünlük vermələrində, eləcə də Həbəşistana, Uqandaya, Tanzaniyaya və Misirə özəl münasibətlərinin formalaşmasında öz əksini tapır.

*Qismət*
***YUNUSOĞLU***
***Bakı Dövlət Universitetinin müəllimi***

# Gürcüstan Təhsil Nazirliyi soydaşlarımızın dərslik məsələsini hələ həll edə bilmir - Azərbaycan Təhsil Nazirliyi yenidən fəaliyyətdə...

***Məlahət Mürşüdlü:** "Azərbaycan dövləti görür ki, Gürcüstan hökuməti addım atmaq istəmir, bu səbəbdən də..."*

**Gürcüstanda yaşayan soydaşlarımızın Azərbaycan dilində orta təhsil almasına Gürcüstan hökumətinin yaratdığı süni əngəllərin miqyası get-gedə genişlənir. Gürcüstanın elm və təhsil qanunvericiliyində, habelə digər qanunlarda bu ölkədə yaşayan azsaylı xalqların, halbuki, Azərbaycan türkləri azlıq təşkil etmir, öz ana dilində sərbəst təhsil almaq hüququ var.**

Təəssüflər olsun ki, bu ölkənin vətəndaşı olan ermənilərə öz dillərində təhsil almaları üçün geniş şərait yaradılsa da, onlar hər cür dərs vəsaitləri ilə təmin olunsalar da, ermənidilli məktəblərin fəaliyyətinə heç bir əngəl törədilmsə də, azərbaycanlılara münasibət belə deyil. Hələ də Azərbaycandilli məktəblərin kadr potensialının artırılması, məktəblərin dərsliklərlə təmin olunması qayğısı ilə Azərbaycan dövləti məşğul olur. Halbuki, Gürcüstanın özündəki ali məktəblərdə Azərbaycan məktəbləri üçün müəllim kadrları hazırlamaq, nəşriyyatlarda dərsliklər çap etmək tam mümkündür. Amma Gürcüstan tərəfi bu istiqamətdə addım atmaq istəmir.

Yadınıza gəlirsə, 2019-2020-ci tədris ili yeni başlayarkən Gürcüstanın Elm və Təhsil Nazirliyi bəyan etmişdi ki, Gürcüstandakı Azərbaycandilli məktəblər üçün dərs vəsaitləri Gürcüstanın özü tərəfindən hazırlanacaq. Buna səbəb kimi Gürcüstanda orta təhsilin 12 illik olmasını göstərirdilər. Nazirlikdən bildirilirdi ki, Azərbaycan tərəfin Gürcüstandakı Azərbaycandilli məktəblərə göndərdiyi dərsliklər guya onların standartlarına uyğun gəlmir. Azərbaycanın soydaşlarımızın oxuduğu anadilli məktəblərə göndərdiyi dərsliklər Gürcüstanın təhsil standartlarına, ölçülərinə uyğun gəlmirsə, onda Gürcüstanın Elm və Təhsil Nazirliyi bu vəsaitləri özü hazırlasın. Elm və Təhsil Nazirliyi söz versə də, hələ də sözünü tutub Azərbaycandilli məktəblər üçün dərsliklər hazırlamağa tələsmir. Azərbaycandilli məktəblərin əlacı isə yenə də Azərbaycanın Təhsil Nazirliyinin göndərdiyi dərsliklərə qalır.

Bildirək ki, bu günlərdə yenə də Azərbaycan Təhsil Nazirliyi Gürcüstanda azərbaycanlı şagirdlərin dərsliklərlə təmin olunmasını öz üzərinə götürdüyünü bəyan edib. Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva deyib ki, Gürcüstanda fəaliyyət göstərən Azərbaycan məktəbləri Təhsil Nazirliyinin diqqətindədir. "Eyni zamanda, həmin məktəblərdə kadr təyinatı məsələsi də Təhsil Nazirliyinin diqqətindədir" - deyə nazir müavini vurğulayıb. Azərbaycan dövləti, ümumiyyətlə, hələ Sovet dövründən Azərbaycan Respublikasından kənarda yaşayan soydaşlarımızın dərslik probleminin həll edilməsinə dayaq olub, o cümlədən də Gürcüstanda yaşayan soydaşlarımızın bu problemini diqqət mərkəzində saxlayıb. Keçən əsrin 90-cı illərindən sonra Gürcüstanda yaşayan soydaşlarımız burada bir sıra problemlərlə üzləşdilər, o cümlədən, Azərbaycandilli məktəblərin qapadılması ilə bağlı xoşagəlməz tendensiya ilə qarşılaşdılar. Amma Azərbaycan dövlətinin səyləri nəticəsində Gürcüstandakı Azərbaycan məktəblərinin hamısı olmasa da, xeyli hissəsi qapadılmaqdan, bağlanmaqdan xilas oldu.

Tanınmış təhsil eksperti Məlahət Mürşüdlü hesab edir ki, Gürcüstandakı Azərbaycandilli məktəblərin problemlərinin həllində Gürcüstan hökuməti də fəaliyyət göstərməlidir. Azərbaycan dövlətinin mütəmadi olaraq soydaşlarımızın təhsil aldıqları məktəblərə diqqət və qayğı göstərdiyini, onların dərsliklərlə təmin edildiyini deyən M.Mürşüdlü hesab edir ki, bu, soydaşlarımızın öz yurdlarına, el-obalarına daha sıx bağlanmasına səbəb olur. Bununla belə, M.Mürşüdlünün fikrincə, Gürcüstan hökuməti azərbaycanlılara qarşı ayrıseçkiliyə son qoymalıdır. "Biz uzun müddətdir Gürcüstandakı Azərbaycandilli məktəblərin problemləri haqda danışırıq, müəllim kadrları ilə bağlı yaranan çətinliklərin aradan qaldırılması yollarını müzakirə edirik. Artıq gələn ildən Azərbaycan ali məktəblərində Gürcüstandakı Azərbaycandilli məktəblər üçün müəllim kadrlarının yetişdirilməsi məqsədilə kvota ayrılacaq, soydaşlarımız pulsuz təhsil alacaqlar, hətta onlara təqaüdlər də veriləcək.

**Bu, Azərbaycan dövlətinin atdığı təqdirəlayiq addımdır. Dərsliklərə gəlincə, illərdir Azərbaycan Təhsil Nazirliyi Gürcüstandakı Azərbaycandilli məktəblərdə təhsil alan soydaşlarımızın, şagirdlərin dərslik probleminin həllini öz üzərinə götürüb və hər il Gürcüstana dərsliklər göndərir. Bu da çox müsbət addımdır.**

**Amma Gürcüstan hökuməti də soydaşlarımızın təhsil aldıqları məktəblərin qayğısına qalmalı, onların dərslik təminatının həlli üçün addımlar atmalıdır. Azərbaycan dövləti görür ki, Gürcüstan hökuməti addım atmaq istəmir, bu səbəbdən bu işi öz öhdəsinə götürür" - deyə müsahibimiz bildirdi.**

***İradə SARIYEVA***




*"İllərdir Azərbaycan Təhsil Nazirliyi Gürcüstandakı Azərbaycandilli məktəblərdə təhsil alan şagirdlərin dərslik probleminin həllini öz üzərinə götürüb"*

**Dövlət İmtahan Mərkəzinin magistraturaya qəbul imtahanının ikinci mərhələsinin ləğv edilməsi ilə bağlı aidiyyəti qurumlara təklif verməsinin cəmiyyət tərəfindən mənfi qarşılanması çox təbiidir. DİM sədri Məleykə Abbaszadə deyib ki, Təhsil Nazirliyinin təşəbbüsü əsasında magistraturaya qəbulla əlaqədar təhlillər aparılıb və gəncləri elmlə məşğul olmağa cəlb etmək üçün magistraturaya qəbul prosedurunun birmərhələli keçirilməsi qəbul edilib.**

# Magistraturaya qəbulun ikinci turunun ləğvi söhbətləri ciddi ictimai narazılıqlar törədib...

## *Kamran Əsədov: "Bu, ixtisaslı kadrların çatışmazlığının mövcud olduğu dövrdə vəziyyəti daha da pisləşdirəcək"*

Həm təhsil ekspertləri, həm də iddiaçılar haqlı olaraq hesab edirlər ki, magistraturaya qəbulun birmərhələli keçirilməsi gənclərin elm sahəsinə marağını azaldacaq. Onsuz da ali təhsilin magistratura pilləsinə qəbul qaydaları çətin olduğu üçün, gənclərin çoxu bakalavr təhsili ilə kifayətlənməli olur. Magistraturaya qəbulun ikipilləli, ikimərhələli olması gənclərin bu sahəyə meyl göstərməsinə səbəb olurdu. Amma yaxın zamanlarda magistraturaya qəbulun birmərhələli keçirilməsi barədə qərar qəbul olunarsa, bu, gənclərin əlindən şansın çıxması demək olacaq. Çünki birinci mərhələdə ya həyəcandan, ya da hansısa səbəbdən istənilən nəticəni göstərə bilməyən iddiaçı ikinci mərhələdə özünü tam olaraq ifadə etmək imkanı qazanırdı. Magistraturaya imtahanların ikimərhələli keçirilməsi gənclərin təhsilini təkmilləşdirməsinə böyük təkan verirdi.

Azərbaycanda, ümumiyyətlə, magistraturaya qəbul qaydaları həddən artıq çətin olduğu üçün, gənclər çalışırlar ki, bu istiqamətdə xarici ölkələrdə təhsil alsınlar. Hətta elə xarici ölkələr var ki, burada, ümumiyyətlə, magistratura təhsili ödənişsizdir, bura qəbul elə də çətin deyil. Bizdə isə əksinədir, magistraturaya imtahan qaydalarını o qədər sərtləşdirmək təklifləri irəli sürürlər ki, gənclər bu pillə üzrə təhsil almağa soyuq yanaşırlar. Gənclər arasında elmə, təhsilə marağın az olduğu bir dönəmdə magistraturaya qəbul qaydalarının dəyişdirilməsi, imtahanların birmərhələli şəkildə keçirilməsi təklifi sosial şəbəkələrdə də çox sərt şəkildə tənqid edilir. Ümumi fikirlər belədir ki, magistratura pilləsində ikimərhələli imtahan qaydası saxlansın, hətta magistratura təhsili pulsuz olsun, belə olarsa, bizim elm və təhsilimiz daha çox qazanc əldə edər.

Tanınmış təhsil eksperti Kamran Əsədovun da magistraturaya qəbul qaydalarının dəyişdirilməsinə münasibəti mənfidir. O bildirdi ki, imtahanların ikimərhələli keçirilməsi daha faydalıdır, nəinki onun birmərhələli keçirilməsi. "Bu gün ciddi şəkildə Təhsil Nazirliyinin və Dövlət İmtahan Mərkəzinin əməkdaşları ilə 2020-ci ildə keçiriləcək magistratura imtahanı müzakirə edilir. Belə başa düşdüm ki, 2020-ci ildə magistratura səviyyəsinə qəbul üçün imtahan birmərhələli olacaq və bakalavrlar məntiq, informatika və xarici dildən imtahan verəcəklər. İmtahan may ayında olacaq... Mən də Təhsil Nazirliyinin Dövlət İmtahan Mərkəzi ilə razılaşdırıb Nazirlər Kabinetinə təqdim etdiyi bu yeniliyə qarşıyam. Bu, ixtisaslı kadrların çatışmazlığının mövcud olduğu dövrdə vəziyyəti daha da pisləşdirəcək. Heç olmasa, bu dəfə Nazirlər Kabineti qarşısına qoyulan bu sənədi həqiqətən də araşdıracaq. Başa düşürəm ki, onların ixtisaslı kadrları yoxdur, amma bu dəyişikliyi qəbul etmək olmaz.

Bəli, təklifə görə magistraturaya qəbulda ixtisas imtahanı ləğv olunur və bu, təhsilin daha əlçatan olması üçün edilir. Dünya təcrübəsində qabaqcıl universitetlərdə magistraturada təhsil alanlar, demək olar ki, bakalavriaturada təhsil alanlara yaxın faizdədir. Azərbaycan universitetlərində isə magistraturaya qəbul kifayət qədər azdır və bununla belə, plan yerləri yenə də dolmur. Əsas səbəbi də imtahan verənlərin 50%-nin DİM-in keçirdiyi imtahanın I mərhələsində müsabiqədən keçməməsidir. Demək, əlçatanlığın qarşısı I mərhələdəki imtahanda alınır".

K.Əsədov qeyd edir ki, 2018 və 2019-cu illərdə imtahanda iştirak edən bakalavrların müvafiq olaraq, 49,73 faizi və 53,61 faizi 50 baldan yuxarı nəticə göstərib, 2014-2016-cı illərdə isə 50 baldan yuxarı nəticə göstərənlər imtahanda iştirak edənlərin təxminən 25-32 faizini təşkil edib: "2019-cu ildə magistratura səviyyəsinə qəbul üçün imtahanda iştirak edən 12241 bakalavrdan 6121 nəfər 49,91-dən yuxarı, qalanları isə aşağı bal toplayıb. 2019-cu ildə 91 və daha yuxarı bal toplayanların sayı 23 nəfər, 81 və daha yuxarı bal toplayanların sayı 336 nəfər, 71 və daha yuxarı bal toplayanların sayı 1369 nəfər olub. 2018-ci ildə isə müvafiq göstəricilər 11, 137 və 872 nəfərdir. Göründüyü kimi, I mərhələnin nəticəsi qənaətbəxş deyil. Magistraturaya tələbat yoxdur. Bunun da əsas səbəbi düşünürəm ki, magistratura təhsilinin əmək bazarında heç bir üstünlüyə malik olmamasıdır. Ölkə üzrə magistrların sayı bakalavrların 9 faizini təşkil edir ki, bu da olduqca aşağı rəqəmdir.



*"Dünya təcrübəsində qabaqcıl universitetlərdə magistraturada təhsil alanlar, demək olar ki, bakalavriaturada təhsil alanlara yaxın faizdədir"*

Mən isə təklif edirəm ki, magistratura imtahanı xarici dil və ixtisasdan olsun. Digər bilik və bacarıqlar isə universitetdə formalaşdırılmalıdır" - deyə mütəxəssis qeyd edib.

Mütəxəssisin fikrindən də göründüyü kimi, Azərbaycanda, ümumiyyətlə, magistraturaya qəbul faizi çox aşağıdır, bu da birbaşa yaradılan süni əngəllərlə bağlıdır. Magistratura imtahanlarına iddiaçının seçdiyi ixtiasaslara aidiyyəti olmayan fənlərin salınması, eləcə də imtahanın I mərhələsinin daha da mürəkkəb olması gənclərin qarşısını kəsir.

**Bu səbəbdən də hesab edirik ki, Nazirlər Kabineti Azərbaycanda magistraturaya qəbulun birmərhələli keçirilməsi ilə bağlı Təhsil Nazirliyi və DİM tərəfindən edilən müraciəti incələyəcək və ictimai rəyi nəzərə almaqla qərar qəbul edəcək. Aidiyyəti qurumlar deyirlər ki, bu təklif magistratura təhsilinin əlçatan olması üçün verilib. Amma biz əksini düşünürük. Hesab edirik ki, bu təklif magistratura təhsilinin əlçatmaz bir uzaqlıqda olmasına şərait yaradır, nəinki əlçatanlığına.**

***İradə SARIYEVA***

# Bakıətrafı marşrut avtobuslarını gecələr yatmayan sürücülər idarə edir - sərnişinlər üçün böyük təhlükə mənbəyi...

**Bakıda avtobus sürücüləri ilə bağlı nə qədər sərt addımlar atılsa da, yenə də sürücülərin özbaşınalığına rast gəlmək mümkündür. Bu sahədə son illər bəzi problemlər öz həllini tapsa da, hələ də müəyyən çətinliklər qalmaqdadır.**

*"Çıxış yolu nağdsız ödəniş sisteminin bütün marşrut xətlərində tətbiq edilməsindən keçir"*

Problem xüsusən Bakıətrafı kənd və qəsəbələrə işləyən avtobuslarla bağlıdır. Məsələ ondadır ki, sözügedən istiqamətlərdə fəaliyyət göstərən marşrut xətlərində işləyən sürücülər fasiləsiz olaraq çalışırlar. Səhər sübh tezdən, axşam saat 11-12-dək rol arxasında otururlar. Hansı ki, qaydalara görə, bir sürücü sutkanın ancaq 8 saatını avtobusun idarə edilməsinə sərf etməlidir. Ancaq bu, faktiki olaraq, gözlənilmir. Sürücü 15 saat sükan arxasında olur. Nəticədə sürücülər yorulur ki, bu da sərnişinlərin həyatını təhlükə altına salır. Hansı ki, Bakıətrafı kənd və qəsəbələrin sakinləri hər gün bu risqlər altında səhərlər işə, axşamlar evə gedirlər. Ancaq sözügedən problem həll edilmir ki, edilmir.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən nəqliyyat sahəsi üzrə ekspert Azər Allahverənovun sözlərinə görə, bir sıra marşrut xətlərində avtobus sürücülərinin iş qrafiki çox ağırdır: "Məsələnin xoşagəlməz tərəfi həm də onunla bağlıdır ki, bir sıra marşrut xətləri plan əsasında işləyir. Yəni həmin marşrut xətlərində nağd ödəniş sistemi tətbiq edilir. O üzdən, sürücü maraqlıdır ki, planı, necə olursa-olsun, yerinə yetirsin. Əks halda qazancından və gəlirindən olacaq. Sürücülərə qoyulan plan yüksək olduğuna görə onlar gərgin şəraitdə işləməli olurlar. Bu da, nəticə etibarilə, sürücünün normadan artıq sükan arxasında oturmasına gətirib çıxarır. Ona görə də çıxış yolu nağdsız ödəniş sisteminin bütün marşrut xətlərində tətbiq edilməsindən keçir. İndi bu istiqamətdə müəyyən işlər gedir. Təəssüflər olsun ki, bu proses bizdə bir qədər gecikib. Şəhərin mərkəzində işləyən marşrut xətləri nağdsız ödəniş sistemindən istifadə edir. Bir qayda olaraq, bütün avtobuslar kartla işləyir. Ona görə də Bakıətrafı kənd və qəsəbələrə işləyən avtobuslar kart sisteminə keçsə, bu problemlər aradan qaldırılacaq. Əslində, sürücünün iş saatı 6 saatdan artıq olmamalıdır. Çünki sürücü yorulur, onun reaksiyası zəifləyir. Bu da onun sürücülük qabiliyyətinə mənfi təsir göstərir. Ona görə də sürücünün normadan artıq avtobusu idarə etməsi yolverilməzdir. Hətta bir sıra inkişaf etmiş ölkələrdə sürücü marşrut xəttində 4 saatdan artıq işləmir.

***Azər Allahverənov:** "Sürücülərə qoyulan plan yüksək olduğuna görə onlar gərgin şəraitdə işləməli olurlar"*




**Yəni növbəlilik əsasında sürücülər işləyirlər. Hesab edirəm ki, gec-tez bizdə də bu sistem tətbiq ediləcək. Bizdə sürücülərin fasiləsiz işləməsi halları nəinki Bakıətrafı kənd və qəsəbələrdə, bölgələrdə də mövcuddur. Ona görə də bu istiqamətdə kompleks tədbirlərin görülməsinə ehtiyac var. Tələblərə cavab verməyən şirkətlər marşrut xəttindən uzaqlaşdırılmalıdırlar".**

***Vidadi ORDAHALLI***

# Əmlak sığortası ilə bağlı vətəndaşlar hədələyici anonim bildirişlər alır...

**2020-ci ildən etibarən yaşayış evlərinin, daşınmaz əmlakın icbari sığortası tətbiq olunacaq. Artıq bəzi şəxslər bu vəziyyətdən istifadə edib əlavə gəlir əldə etmək istəyir. Vətəndaşlara anonim bildirişlər göndərilir ki, mənzilini sığorta etdirməsə hər ay müəyyən məbləğdə cərimə olunacaq.**

*"Əmlak sığortası könüllü olmalıdır, sadəcə, əhalini buna təşviq etmək lazımdır ki, öz istəyi ilə əmlakını sığortalasın"*

Hüquqşünas Sahib Məmmədov bildirdi ki, hazırda evlərə anonim şəxslər tərəfindən bildirişlər paylanır:"Hər kəs yanvar ayından başlayaraq öz mənzilini sığorta etdirməsə, hər 20 gündən bir 30 manat cərimə olunacaq. Bu maddə İnzibati Xətalar Məcəlləsində var idi. Amma yalnız əmlak üzərində hüquqları həyata keçirərkən insanlar məcbur olub daşınmaz əmlaklarını sığorta etdirirdilər. Cərimə də tətbiq edilmirdi". Onun sözlərinə görə, indi 20 gündən bir cərimə yenilənməsi o deməkdir ki, 50 manat verib əmlakını sığorta etməsə, daşınmaz əmlakı olan şəxs bir ildə 547 manat 50 qəpik cərimə olunacaq: "Əlbəttə, daşınmaz əmlakı sığorta etmək yaxşıdır. Çünki indi dövlət məcbur olur ki, sığortaçı qismində çıxış etsin. Əmlakı bu və ya digər səbəblərdən sıradan çıxan istənilən şəxs dövlətdən umur ki, kompensasiya ödənilsin. Amma dünyada sığortanın qızıl qaydası var. Yalnız 3-cü şəxslər qarşısındakı məsuliyyətin sığortası icbari ola bilər. Əmlakın icbari sığortası mülkiyyət hüququnu pozur. Bu səbəbdən sığorta prinsipləri nəzərə alınmalıdır.

Əmlak sığortası könüllü olmalıdır, sadəcə əhalini buna təşviq etmək lazımdır ki, öz istəyi ilə əmlakını sığortalasın. Xüsusi kateqoriyalı insanları isə, hətta dövlətin özü büdcə vəsaiti ilə sığorta edə bilər".

S.Məmmədov onu da vurğuladı ki, ucdantutma cərimələrin tətbiqi yüzminlərlə insanı borc asılılığına sala bilər: "Xarici ölkəyə getmək istəyənlərə stop qoyula bilər. Bu addım sosial gərginlik yarada bilər".

***Sahib Məmmədov:** "Ucdantutma cərimələrin tətbiqi yüzminlərlə insanı borc asılılığına sala bilər"*




***Günel CƏLİLOVA***

№ 223 (4121) ■ Qiymәti: 40 qәpik

BAKI XƏBƏR

14-16 DEKABR 2019-cu il

www.baki-xeber.com

# Yeni Qvineyadakı Caya dağının zirvəsindəki buzlaqlar 10 ildən sonra yox olacaq

**Caya dağı (Puncak Jaya İndoneziya dilindən tərcümədə "qələbə" deməkdir) 1623-cü ildə hollandiyalı tədqiqatçı Yan Karsten tərəfindən kəşf olunub. Səyyah günəşli gündə onun zirvəsində buzlaq aşkar edib.**



Daha çox Karsten piramidası kimi tanınan Caya dağı Yeni Qvineya adasının qərbində yerləşir. Onun zirvəsi Okeaniyanın ən yüksək nöqtəsidir, dağın hündürlüyü 4 884 metrdir. "AZƏRTAC" bildirir ki, Ohayo ştatı Universitetinin Berd adına Qütb və İqlim Tədqiqatları Mərkəzinin bir qrup alimi Karsten piramidası buzlağını tədqiq edib. Onlar bildiriblər ki, buzlaq artıq 150 ildir ki, əriyir, lakin son illər bu proses dəfələrlə sürətlənib. Əriməninin artmasının əsas səbəbi 2015-2016-cı illərdə El-Ninyo zamanı Sakit okeanın ekvatorial hissəsində yuxarı su təbəqələrinin temperaturunun yüksəlməsidir. Tədqiqatın nəticələrinə görə, ehtimal olunan daha bir güclü El-Ninyo zamanı - 10 ildən sonra buzlaq tamamilə yox olacaq. Karsten piramidasında buzun əriməsini dəqiq ölçmə işləri 2010-cu ildə başlayıb. Tədqiqatçılar buzlaqda dəlik açaraq oraya trosla birləşdirilmiş boru yerləşdiriblər. 2015-ci ilin noyabrında həmin yerə qayıdan alimlər görüblər ki, trosun uzandığı 5 metrlik buz əriyib - burada hər il 1 metrlik buzlaq yox olub. Amma 2016-cı ilin mayınadək daha 4,26 metrlik buz qatı əriyib. Cəmi altı ay ərzində proses beşillik sürətlə davam edib.

## İtaliyada pulsuz evlər paylanır, ancaq işin bir əmması var...

**Məlumdur ki, İtaliyada daşınmaz əmlakın qiymətləri çox bahadır. Məsələn, Siciliya adasında evlərin qiyməti 133 min avrodan başlayaraq 2,8 milyon avroyadək dəyişir.**



Lakin elə bu adada pulsuz evlər də paylanılır. "Fed.az" bildirir ki, Siciliyanın mərkəzində yerləşən və orta əsrlərdə tikilmiş Kammarata şəhərində bu pulsuz evlər əldə etmək mümkündür. Lakin burada bəzi nüanslar var. Belə ki, pulsuz ev əldə etmək istəyənlər 3 il ərzində onu rekonstruksiya etməlidirlər və bunun üçün artıq dəqiq plan olmalıdır. Rekonstruksiya evin xarici ilkin görünüşünü dəyişməməlidir. Təmir qiymətləri isə həddindən artıq bahadır. Bazar qiymətlərinə əsasən, şəhərdə bir kvadratmetrlik sahənin təmiri 700 avro civarındadır. Təmirdən öncə ev sahibi bələdiyyəyə 5 min avro beh ödəməlidir. Kammarata şəhəri sürətlə boşalır. Hazırda burada 6300 nəfər yaşayır. Evlərin çoxu atılmış və yarımdağılmış vəziyyətdədir. Hazırda 8 ev bağışlanmaq üçün gözləyir. Daha 100 ev atılmış vəziyyətdə bələdiyyənin hesabındadır. Pulsuz ev almaq istəyənlər arasında üstünlük gənc ailələrə verilir. Dünyaya uşaq gətirmək istəyənlərə isə əlavə 1000 avro hədiyyə verilir. Evləri biznes məqsədilə də istifadə etmək olar. Məsələn, onları restavrasiya edib otel halına gətirmək mümkündür.

## 70 il sonra gəlinlik geyindi

**Antalyada yaşayan 85 yaşlı Döndü Metin adlı qadın 70 il sonra arzusuna çatıb.**

"Axşam.az" bildirir ki, 15 yaşında ikən İbrahim Metin ilə evlənən qadın maddi çətinliklər səbəbilə gəlinlik geyinə bilməmişdi. 30 il əvvəl ərini itirən Döndünün bu arzusunu isə nəvəsi Tülaz Sezmiş yerinə yetirib. O, nənəsinə sürpriz edərək, gəlinlik alıb və restoran kirayələyib. Mərasimdə ailənin qohumları və dostları iştirak edib. 85 yaşlı qadın toyda həm oynayıb, həm də mahnı oxuyub. Qeyd edək ki, onun 10 övladı və 28 nəvəsi var.

## "Nar" abunəçilərinin nəzərinə!

**Hörmətli abunəçilər, diqqətinizə çatdırmaq istəyirik ki, "Nar" adından istifadə edib bank kartlarından pul oğurlayan fırıldaqçı oyun saytı aşkarlanıb. İstifadəçilər müxtəlif vebsaytlardan oyun səhifəsinə yönləndirilir və onlara smartfon uduşu vəd olunur. Bildiririk ki, "Nar" mobil operatorunun 3-cü tərəflərin yaratdığı bu fırıldaqçı saytla heç bir əlaqəsi yoxdur.**

Mobil operator şirkətin şəffaflıq prinsipinə uyğun olaraq abunəçilərini hər zaman spam xarakterli qoşulmalardan qoruyur. Arzuolunmaz SMS göndərişləri, vebsəhifələrdən avtomatik qoşulma, səsli bələdçi xidməti ilə yönləndirmələr kimi müştəri təcrübəsinə mənfi təsir edə biləcək xidmətlərin abunəçilərə təqdim edilməməsi üçün "Nar" bu cür xidmətlər göstərən məzmun təminatçısı şirkətləri ilə əməkdaşlıq etmir.

Abunəçiləri diqqətli olub şəxsi və kart məlumatlarını paylaşmamağa və yalnız "Nar"ın rəsmi vebsaytında - https://www.nar.az/ və sosial şəbəkə profillərində keçirilən müsabiqələrə qatılmağa çağırırıq.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97,7%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 8600-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.





**Qoç** - Emosional fon gərgindir, bunun nəticəsində yaxınlarla münasibətlərdə çətinliklər yaranır. Hələlik onlar xırdadır, az narahatlıq yaradır, ancaq bəziləri üçün elə bu da kifayətdir ki, gələcəyi fikirləşsinlər, "köhnəlmiş" əlaqələri yenisiylə əvəz etməyə çalışsınlar.



**Buğa** - Çoxları hövsələsizlik edir, ətrafındakılara qarşı yerinə yetirilməsi mümkün olmayan tələblər irəli sürürlər. Uzun müddət yaxşı münasibətdə olduqlarını nümayiş etdirən insanlar tez-tez mübahisə edirlər.



**Əkizlər** - Əhvalınız da, işgüzar aktivliyiniz də yerlə sürünür. Sizi doğrudan da maraqlandıran bir məşğuliyyət tapa bilmirsiniz. Adəti əyləncələr də sevindirmir. Tərs kimi, ağlınıza da yeni heç nə gəlmir.



**Xərçəng** - Məşğul olduğunuz heç bir iş sizdə maraq doğurmur. Çox böyük məmnuniyyətlə öz vəzifələrinizi kimsə tapşırardınız, ancaq belə bir "hədiyyə"ni xoşluqla qəbul edəcək adam yoxdur.



**Şir** - Bu gün işgüzar ünsiyyət üçün münasib deyil, danışıqları təxirə salmaq, görüşlərin vaxtını dəyişmək lazımdır. Vacib qərarlar qəbul etmək olar, ancaq bir şərtlə: siz kimsənin sizə təzyiq göstərmədiyindən, sizi idarə etmədiyindən tam əmin olmalısınız.



**Qız** - Emosional fon mürəkkəb və qeyri-sabitdir. İş təkcə əhvalınızın tez-tez dəyişməsində deyil, problem daha ciddidir. Sizi mənfi emosiyalar bürüyüb, amma onların əsl səbəbini tapa bilmirsiniz.



**Tərəzi** - Narahat gündür, işləriniz çox, vaxtınız az olacaq. İşdə hansısa məsələnin həllində çətinlik yarana bilər. Çünki, güvənməyə alışdığınız adam özünü sizin heç istəmədiyiniz tərzdə aparır.



**Əqrəb** - Böyük qələbələr qazana bilərsiniz. Əgər ambisiyalısınızsa, diqqətinizi işə yönəldin, qazanacağınız nailiyyətlər karyeranın ən yüksək pilləsi üçün bütün yollarınızı açacaq. Şəxsi münasibətlər baxımından da gözəl gündür.



**Oxatan** - İldırım sürətilə öhdəsindən gələcəyinizi zənn etdiyiniz məsələnin həlli gözlənilmədən çətinə düşür. İşi bitirmək üçün, çox güman ki, kimisə köməyə çağırmalı olacaqsınız. Bu xoşagəlməz dəyişmələrin səbəbini isə anlamırsınız.



**Oğlaq** - Parlaq, yaddaqalan, amma o qədər də uğurlu olmayan gündür. Emosional, coşğunsunuz, amma düzgün qərar vermək üçün kifayət qədər diqqətli deyilsiniz, üstəlik, götür-qoy etmək fikriniz yoxdur.



**Dolça** - Günün birinci yarısını xoş, amma faydasız fantaziyaların əsarətində keçirəcəksiniz. Sizə elə gəlir ki, arzularınızın gerçəkləşməsi mümkündür, sadəcə, gözləmək lazımdır. Ancaq planlarınız qeyri-real, gözləntiləriniz isə əsassızdır.



**Balıqlar** - İşlər düzəlir, müsbət tendensiyaların təsiri artır. Əvvəllər etdiyiniz səhvləri aradan qaldırmaq şansı yaranır. Sizi intuisiyanız idarə edir, bu səbəbdən səhv etmir, yeni layihələrdə ehtiyatlılıq göstərirsiniz.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Veteranın pensiyasını peçenye ilə ödədilər

**Rusiyanın Ufa şəhərində əmək veteranının başına iş gəlib.**



"Qafqazinfo" xəbər verir ki, veterana ödənilməli olan 13 min 127 rubl məbləğində təqaüd poçtalyon tərəfindən qəribə şəkildə sahibinə çatdırılıb. Belə ki, qocaya 13 min 100 rubl ödəyən poçt işçisi 27 rubl əvəzinə peçenye verib. Poçtalyon bunu onunla izah edib ki, onlara yalnız 100 rublluq məbləği ödəmək tapşırılıb. Veteranın qızının sözlərinə görə, atası eşitdiklərindən özünə gəlməmiş poçt nümayəndəsi oradan uzaqlaşıb.

***Hazırladı: Ramil QULİYEV***

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

**Redaksiyanın ünvanı:** *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

**Tel-faks:** *510-87-40; 510-87-38; 510-87-39*

***e-mail: azer22@mail.ru***

**Reyestr № 0106-P219-45846**

**Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.**

***Sifariş: №2514*** ***Tiraj: 3050***

**Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.**

**Reklam mətninə görə qəzet məsuliyyət daşımır.**